Bizim Ailə

NO:4-Oktyabr-Noyabr-Dekabr- 2008- Qadın Ailə Jurnalı

Mənə bir hərf öyrədənin
qırx il köləsi olaram
Hz. Əli

ƏN ŞƏRƏFLİ BİR AD:

MÜƏLLİM

BİZİM AİLƏ
Qadın- Ailə jurnalı
Dövlət Reystr № 20929

Təsisçi və redaktor:
Samirə Mahmudova

Məsul katib:
Mədinə Əliyeva

Redaktor müavinləri:
Eslemnur Məmmədova
Qətibə Vaqifqızı

Redaksiya heyəti:
Dr.Mehri Məmmədova
Dr.Qiymət Məhərrəmli
Dr.Sevinc Aslanova
Dr.Mehriban Qasımova
Dr.Samirə Həsənova
Şefika Kaya Meriç
Zeynəb Nuri
Sevda Xəlilova
Meryem Demir
Vüsalə Quliyeva
Rəna Mirzəliyeva
Aynur Quliyeva

Abunə və reklam işləri:
Aynur Məmmədova

Dizayn: Bizim ailə

Ünvan: Bakı şəhəri, Nəsimi r/n C. Məmmədquluzadə küçəsi.
Tel: 0503696523

Web:
www. bizimailə.az
e-mail:
bizimaile@bizimaile.az
bizimailedergisi@yahoo.com

Əziz oxucu!

Müəllim adı şərəfli addır. Bu adı layiqincə daşıyanlar gələcək nəsillərə əvəzedilməz bir sərvət qoyub getmişlər. Təlim etdikləri əsaslar nəsildən-nəsilə keçərək insanlığın qurtuluşuna vəsilə olmuşdur. Bəşər övladı dünyaya göz açdığı daha ilk gündən şəfqətli və mərhəmətli bir müəllim və tərbiyəçiyə ehtiyac duyur. Müəllimin insana verdiyi bilik onun bir şəxsiyyət kimi formalaşmasında, həyatın eniş-yoxuşlarında durmasına qarşı mənəvi bir azuqədir. Bu azuqədən məhrum olanlar həyatın girdabına düşərək mənən tənəzzülə uğrayırlar. Hətta dinimiz İslam elm əldə etməyə və bu elmi başqalarına öyrətməyimiz üçün heç bir sədd qoymamışdır. Bu sayımızda müəllimlik sənətinin müqəddəsliyindən bəhs ediləcəkdir. Müqəddəs deyirəm ona görə ki, onu bizə ilk təlim edən **"Həbibullah"** ləqəbinə layiq olan Hz. Muhəmməd (s.ə.s) olmuşdur.

Onun müəllimi və tərbiyəçisi isə Allah Təala olmuşdur. Əbəs yerə bir qüdsi-hədisdə buyurmamışdır ki; *"Məni Rəbbim tərbiyə etdi, nə gözəl tərbiyə etdi."* Bizim o, mənəvi Liderin izindən gedərək, onun yolunu davam etdirməyimiz üzərimizə düşən bir məsuliyyətdir.

Jurnalımızın bu sayında müəllimlik sənətinin ləyaqətindən, məktəb illərinin acılı-şirinli xatirəsindən, ideal müəllim olma xüsusiyyətlərindən, görkəmli alim, türkoloq **Xalid Səidin qızı Bəhicə Xocayeva** ilə reportajımız olacaq və uşaq hüquqlarından bəhs ediləcəkdir. Eləcə də Bakı milyonçusu **Hacı Zeynalabdin Tağıyevin** açdığı qız məktəbindən söhbət açılacaqdır. Hər sayda olduğu kimi, bu sayımızda da balacalar üçün maraqlı məlumatlar və qadınlarımızın da diqqətini cəlb edəcək maraqlı bir mövzumuz da olacaqdır.

Son olaraq dəyərli oxucularımıza qurbanla əlaqədar bir mövzunu da təqdim edir və qarşıdan gələn bu bayramımızla və həmrəylik günü münasibəti ilə bütün müsəlmanları təbrik edirik.

İÇİNDƏKİLƏR

KİMDİR MƏNİM MÜƏLLİMİM?
Samirə MAHMUDOVA.....3

XİDMƏTİ NEMƏT BİLMƏK
Şeyma ƏDİLOVA.....5

İLK MƏKTƏB İLLƏRİNİ NECƏ XATIRLAYIRSINIZ?
Şefika Kaya MERİÇ.....6

ŞƏRƏFLİ BİR AD: MÜƏLLİM
Mədinə ƏLİYEVA.....8

ÖVLADIM ƏZİZDİR, TƏRBİYƏSİ ONDAN ƏZİZDİR
Vüsalə QULİYEVA.....10

ŞƏRƏFLİ ÖMRÜN ÖRNƏK İFƏLƏRİ
Reportaj.....12

UŞAQLAR GƏLƏCƏYƏ İNAMLA BAXSINLAR
Dr. Sevinc ASLANOVA.....14

QÜRBƏTDƏN VÜSALA HƏSRƏT
Meryem DEMİR.....16

MƏNİM İLK HƏYAT MƏKTƏBİM
Xəyalə ABDÜLAZİM.....17

MÖMİNLƏRİN ANASI Hz.SEVDƏ
Sevinc ƏFƏNDİYEVA.....18

DİLİN BƏLASI QEYBƏT
Rəna MİRZƏLİYEVA.....20

İSLAMDA QADININ YERİ VƏ QIZLARIN TƏLİM-TƏRBİYƏSİ
Osman Nuri TOPBAŞ 22

XƏZAN MÖVSÜMÜ
Hatice ŞAHİN.....28

İLK QIZ MƏKTƏBİ
Qətibə VAQİFQIZI.....30

ANA BÖYÜKLÜYÜ
Dr. Qiymət MƏHƏRRƏMLİ.....32

MALI BİR İBADƏT OLAN QURBAN
Xanım HƏMZƏYEVA.....34

HAMİLƏLİKDƏ SAĞLAM QİDALANMA
Dr. Aynur MƏMMƏDZADƏ.....36

LƏZZƏT DÜNYASI
Müyesser TAŞLIYAR.....38

MƏTBƏX MƏDƏNİYYƏTİ
Məryəm XƏLİLOVA.....40

GƏLİN BİRLİKDƏ GÜLƏK
Aynur QULİYEVA.....42

XƏSİS QIZ
Hacer Aleyna TAŞLIYAR.....44

3

KİMDİR MƏNİM MÜƏLLİMİM?

6

İLK MƏKTƏB İLLƏRİNİ NECƏ XATIRLAYIRSINIZ?

22

İSLAMDA QADININ YERİ VƏ QIZLARIN TƏLİM-TƏRBİYƏSİ

17

MƏNİM İLK HƏYAT MƏKTƏBİM

Samirə MAHMUDOVA

KİMDİR MƏNİM MÜƏLLİMİM?

Dünyanı içindəki canlılarla birlikdə yaradan, yaşamaları üçün hər şeyi onların istifadələrinə verən Allah Təala məxluqatı müəyyən ahəng və nizam içində yaratmış, bunlardan bəzilərini proqramlaşdırmış, bəzilərinə isə hər şeyi özlərinin öyrənmələri üçün fürsət vermişdir. Məsələn, ana tısbağa bala çıxartmaq üçün yumurtalarını dənizdən 20 metr aralıda qumluğa basdırıb, onları həyatın axarına buraxır. Zamanı gələndə bala tısbağalar yumurtadan çıxır. Çıxan kimi sürünərək (görmə hələ inkişaf etməsə də) dənizə tərəf gəlir və dənizə atılaraq üzməyə başlayırlar. Bu proses onlara sürünməyi, üzməyi öyrədən anaları olmadığı halda, instikt olaraq baş verir. Bəs onları öyrədən kimdir və ya hansı qüvvədir? Axı onlar hələ körpədir? Anasız, tərbiyəçisiz onlar həyatın ağuşuna atılırlar. O zaman bunun, ancaq və ancaq ilahi qüdrətin əsəri olduğunu desək daha doğru olar. Allah Təala onların həyatları boyu rastlaşacaqları və etmələri vacib olan hərəkət və davranışlarını instikt şəkilində onlara vermiş, onları heç kəsə minnətçi etməmişdir. Bəs, əşraful-məxluqat (canlıların ən şərəflisi) olaraq yaratdığı insanı necə, proqramlaşmış şəkildə göndərirmi? -Xeyr. Zariyat surəsində **"Mən insanları və cinləri mənə ibadət etsinlər deyə yaratdım."** buyuran Allah Təala insanlara çalışıb çabalayaraq hər şeyi öyrənmələri üçün fürsət vermişdir. Bunun nəticəsində bəşər övladı nəyin yanlış və nəyin doğru olduğunu, nələrin xeyirli və zərərli olduğunu öyrənir. Burada ona rəhbərlər yol göstərir. İnsan hələ doğulduğu gündən etibarən rəhbər dediyimiz bir müəllimə ehtiyac duyur. Bu müəllim ona çox yaxın, canından bir

parça olan anasıdır. Ona danışmağı, yeriməyi öyrədir. Onun nəvazişli qollarında mışıl-mışıl xumarlanaraq yatır. Daha sonra böyüyür, həyatının müəyyən bir məqamında bir başqa müəllimə ehtiyac duyur. Bu müəllim ona cəmiyyət içində özünü düzgün aparmağın yollarını, öz yaşıdları və başqa insanlarla ünsiyyət qurma qaydalarını öyrədir. Daha sonra, o, bütün elmləri və sosial həyatda ehtiyacı olan bilgiləri müxtəlif müəllimlərdən öyrənərək, demək olar ki, bir çox şey öyrənmək üçün ömrünün yarısını onların yanında keçirir. Demək, insan hər zaman və hər yerdə bir müəllimə ehtiyac duyur. Allah Təala insanların müəllimə olan ehtiyaclarını ilk olaraq göndərdiyi Ələq surəsində belə bəyan edir: **"De ki: qələmlə yazmağı bizə O öyrətdi. İnsana bilmədiyini öyrədən Odur".**

Bəşər övladı yaradıcısı olan Allah tərəfindən ehtiyacı olan bilgiləri öyrənir. Bu yolda ona Rəbbinin sevgili qulları olan insanlar arasından öz məsumluğu, zəkası və müdrikliyi ilə seçilən peyğəmbərlər vasitəçilik edir. İnsanlar daima xəta edir. Allahın sevib-bəyənmədiyi işlərlə məşğul olurlar. Bu yollardan onları çəkindirəcək biri varsa, o da, peyğəmbərlərdir. Ən son din olan İslam dininin peyğəmbəri Həzrət Məhəmməd (s.ə.s.) də Allahın ilahi məsajlarını insanlara çatdırmaq üçün göndərilmişdir. O, bu yolda bütün insanlığa nümunə ola biləcək müstəsna bir həyat yaşamışdır. Az ruzi ilə qənaət edərkən toxgöz olmağı, incindiyində əff etməyi bacarmağı, uşaqlara qarşı hərəkətlərində mərhəmətli, mülayim və sevgicanlı olmağı, ailəiçi münasibətlərdə daima sadiq və mehriban olmağı, dostlarına və bütün insanlara qarşı sadiq, sadə və təvazökar olmağı, bitki və heyvanat aləminə belə rəhmət və mərhəmətli olmağı biz insanlara öyrətmişdir. Bütün gözəl keyfiyyətləri özündə birləşdirən və əxlaqın zirvə nöqtəsində duran bu insan Allah tərəfindən bütün bəşəriyyətə bir tərbiyəçi, bir müəllim olaraq göndərildi. Budur mənim müəllimim!!! Öz əxlaqi keyfiyyətləri və davranışı ilə gözəl ömür sürən müəllimim! İnsana hər şeydən öncə insan olmağı, qadın və kişiliyindən, böyük və kiçikliyindən, rəng və irqindən asılı olmayaraq, ona şəxsiyyətini tanıtdıran, haqq və hüququnu bildirən, ona dünyaya gəlmə missiyasını xatırladan müəllimim! İnsanın da, digər fanilər kimi bir gün sonunun gəlib, əbədi həyata köçərək etdiyi əməllərə görə mükafat və ya cəza görəcəyini bildirən müəllimim! Cəhalətə, savadsızlığa, əxlaqsızlığa və hər cür pis əmələ qarşı mübarizə aparmağı şərəfli və keşməkeşli həyatı ilə bizə öyrədən müəllimim! Bəşər övladının yalnız elmi deyil, eyni zamanda əxlaqi xüsusiyyətləri sayəsində hörmət və izzət gördüyünü sübut edən müəllimim! Dünyanın 100 böyük ideal insanının arasından birinci olaraq seçilən müəllimim!

İnsan hələ doğulduğu gündən etibarən rəhbər dediyimiz bir müəllimə ehtiyac duyur. Bu müəllim ona çox yaxın, canından bir parça olan anasıdır. Ona danışmağı, yürüməyi öyrədir. Onun nəvazişli qollarında mışıl-mışıl xumarlanaraq yatır. Daha sonra böyüyür, həyatının müəyyən bir məqamında bir başqa müəllimə ehtiyac duyur.

Şeyma ƏDİLOVA

XİDMƏTİ NEMƏT BİLMƏK

Xidmət edən insanın könlü münbit bir torpaq kimi olmalıdır. Torpağın üstündə gəzən canlılar onu çeynəyər və pisliklərini onun üstünə tökər. Amma torpaq bu pislikləri təmizləyər və sonra müxtəlif nemətlər bitirərək üzərində dolaşan bütün canlıları bəsləyər.

İslam əxlaqının əsas prinsipi Allah Təalaya ixlas ilə yönəlişdir. Bu yönəlişin ən mühüm nişanı da heç şübhəsiz ki, "Xidmət" də tapırıq.

Zirvəyə ucalmanın yolu və qazancı səmimi qəlblə edilən xidmətdən keçir. Səmimi və ixlasla edilən xidmətin ən məqbulu kimsəni incitmədən həyata keçirilən xidmətdir. Yəni xidmətdə ədəb xidmətdən daha əzizdir. Minnətlə, təmənna ilə (başa qaxmaqla) xidmət edən çoxdur. Ancaq xidməti nemət bilənlər çox azdır. Mərhəmətsiz və məhəbbətsiz edilən xidmət qəlb sındırmaq kimidir. Xidmət edən insanın könlü münbit bir torpaq kimi olmalıdır. Torpağın üstündə gəzən canlılar onu çeynəyər və pisliklərini onun üstünə tökər. Amma torpaq bu pislikləri təmizləyər və sonra müxtəlif nemətlər bitirərək üzərində dolaşan bütün canlıları bəsləyər. Bəli, xidmət sahiblərinin qəlbi də münbit bir torpaq kimi olmalıdır.

Xidmətin ən çətini insanın təlim-tərbiyəsidir. Tərbiyə olunmamış hər nəfs insanı daim çirkin işlər görməyə təşviq edir. Tərbiyəçidə hiss və duyğular güclü olmalıdır. Çünki tələbə ilə ünsiyyət yaradarkən tərbiyəçi onların duyğularını hiss etməli, dəyərləndirməli və buna uyğun davranmalıdır. Məsələn, bir həkimin müalicə etməzdən əvvəl xəstəsini müayinə etdiyi kimi.

Unutmaq lazım deyil ki, problemi həll olunan insanı qazanmaq olur. Həqiqətən də, müəllim şagirdinin xarakterini və istedadını təsbeh dənələri kimi tanımalı, kimin nəyə qabiliyyəti varsa, onu o yönə hazırlamağa çalışmalıdır. İnsanlığa hidayət rəhbəri olan Qurani-Kərim Allah Təalanın bizlərə ilahi bir əmanətidir. Bizlər bu əmanəti ən gözəl bir şəkildə qoruyub, övladlarımıza, qohumlarımıza, qonşularımıza və gücümüz nisbətində ətrafımızdakı insanlara öyrətməliyik. Bu, bizə İlahi qüvvə tərəfindən verilən xidmətdir. Yoxsa, Allah qorusun ziyan edənlərdən olarıq.

Şefika KAYA MERİÇ sefikakayameric@hotmail.com

İLK MƏKTƏB İLLƏRİNİ NECƏ XATIRLAYIRSINIZ?

Dünyanın hər tərəfində, bütün ölkələrin ən çox əhəmiyyət verdikləri məsələ təhsildir. Bir çox dünya dövlətləri illik büdcələrinin ən böyük hissəsini ordu üçün, sonrakı böyük qismini də təhsil üçün ayırırlar. Əvvəllər təhsil almaq üçün müəyyən olunmuş ilk yaş həddi 9-10 olduğu halda, müasir dövrümüzdə bu yaş həddi daha da aşağılara enmiş və bu təhsil sisteminə anaokulu qavramı qazandırılaraq, anaokulu sektoru deyilən bir sektor formalaşdırılmışdır. Təbii ki, bunu da unutmamalıyıq ki, təhsil əslində hələ ana bətnində başlayır və məzara qədər davam edir. Bu əsas prinsipi qəbul etməklə bərabər, xüsusi olaraq pedaqogikaya, təhsilə aid bəzi məsələlərə toxunmaq istəyirəm.

Hamımız orta məktəbin birinci sinfini xatırlayırıq. Hər birimizin necə başladığımızı, hansı qorxu və həyəcanları yaşadığımızı və necə bir haləti-ruhiyyə içərisində olduğumuzu…Bəzilərimiz üçün təhsil sahəsində yaşadığımız ilk yaşantılar hayatımızın yönünü müəyyənləşdirmişdir. İstər məktəbimizin keyfiyyəti, istər müəllimlərimizin bizə qarşı davranışları, istərsə də dostlarımızla olan münasibətlərimiz hələ məktəb illərinin birinci sinfində təməllərini qoymuş və bizim təhsilimizə istiqamət verən amillər olmuşdur. Məsələn, indi geri dönüb illər öncə müəllimləriimizdən hansını xatırlayırıq dediyimiz zaman, görəsən, hansı tip müəllim xatirəmizdə qalmış, ya da o müəllim hansı xüsusiyyətləri ilə yaddaşımızda yer etmişdir? Bu çox əhəmiyyətlidir. Daha sonrakı təhsil illəri-

Müəllimliyin ən əsas şərti tələbəni sevməkdir. Tələbə bir müəllimin rəqibi deyil, onun sanki öz övladları kimi olmalıdır. Lazım gələrsə onların hər bir dərdinə şərik olmalı, onların nazını çəkməli, öyrədəcəyi dərsi onlara sevdirmək üçün əlindən gələni əsirgəməməlidir.

mizdə ən çox sevdiyimiz dərsi sevməmizin səbəbi mütləq bizə o dərsi ən gözəl şəkildə başa salan müəllim olmuşdur. Ya da heç sevmədiyimiz dərsin səbəbkarı da elə müəllimimizdir. Bu ifadə həmişə söylənilir: müəllim bir tələbənin həm anası, həm də atasıdır. Bu çox doğrudur, çünkü hayatı hələ yeni tanımağa başlayan bir uşağın dünyasını ən çox əhatə edən, ona yaxşı və pis mənada hər şeyi verə biləcək olan tək insan onun müəllimidir.

Bundan təxminən 14 il əvvəl ibtidai sinif müəllimim olmuş Fikri bəy, bir az sərt, amma bir ata kimi qayğıkeş insandı. O, bizim üçün əlçatmaz, hər şeyi doğru edən, əsla xəta işləməyən bir insan idi. İbtidai sinif müəllimimiz olduğu üçün bir neçə dərsimizə birdən gələrdi. Riyaziyyat, Türkçə və digər dərsləri bir az da onun sayəsində sevmişdim. İbtidai sinfi bitirib, atamın vəzifəsi ilə əlaqədar olaraq yaşadığımız şəhərdən köçdük. Təbii ki, araya illər və məkanlar girdi. Orta məktəb, litsey, universitet-bunlar bir-birini əvəz edə-edə fiziki mənada təhsil həyatımızı bitirmiş olduq. Keçən bir- neçə il əvvəl ibtidai sinfi oxuduğum yerə bir ziyarət üçün getdikdə təsadüfən ibtidai sinif müəllimimə rast gəldim. Bir film lenti kimi ilk məktəb illərim gözlərimin önündən keçdi. Müəllimimlə neçə il sonra qarşılaşmaq, əlbəttə ki, mənim o uşaq ruhumda buraxdığı gözəl izlər baxımından dəyərli və mühüm idi.

Əslində bu nümunə hamımızın yaşaya biləcəyi adi bir hadisədir. Bir də bunun tam əksini düşünək. İllər sonra qarşılaşdığımız müəllimimizə nifrət duyğuları ilə də baxa bilərdik. Ya da bu müəllim üzündən mən dərslərimi sevmədim və dolayısı ilə oxuya bilmədim, indi oxusaydım həyatdakı mövqeyim daha fərqli ola bilərdi, deyə fikirləşə də bilərdik.

Bu mənada bu günün müəllimi olan hər kəsə söyləniləcək ən qısa və ən dəqiq fikir budur ki:

Müəllimliyin ən əsas şərti tələbəni sevməkdir. Tələbə bir müəllimin rəqibi deyil, onun öz övladları kimi olmalıdır. Lazım gələrsə onların hər bir dərdinə şərik olmalı, onların nazını çəkməli, öyrədəcəyi dərsi onlara sevdirmək üçün əlindən gələni əsirgəməməlidir.

Bu mövzuda oxunacaq, ya da müraciət edilə biləcək kitablardan, Mehmet Faruk Bayraktarın *"Öğretmen Öğrenci İlişkileri"*, (Burhaneddin ez- Zernucinin çox məşhur bir əsəri olan *"Talimul Müteallim"* əsəri və ya Vehbi Vakkasoğlunun *"Öğretmenin not dəftəri"* oxunacaq kitablardandır. Bundan başqa ideal bir müəllim tipi necə olmalıdır, mənəvi böhranlar içərisində qıvrılan, narkotik və digər əxlaqsızlıq girdablarında dolaşan gəncliyə bir müəllimin necə fədakarlıqlar göstərərək faydalı ola biləcəyi kimi məsələləri özündə əks etdirən Ali Erkan Kavaklının *"Bilgə Öğrətmən"* romanı da bu məqsədlə oxunan kitablar sırasında ola bilər.

Unutmamalıyıq ki, bir millətin gələcəyi gənclərdir. Və o gəncləri yetişdirən, onları bir şəxsiyyət kimi formalaşdıran da o millətin müəllimləri, tərbiyəçiləridir.

Mədinə ƏLİYEVA
m_eliyeva74@hotmail.com

Şərəfli bir ad: MÜƏLLİM

Müəllimin qəlbində *"Yaradılanı Yaradandan ötrü sevmək"* sözləri yer tutmalıdır. Bir müəllim ilk başda şagirdlərinin sevgisini qazanmalıdır. Belə olunca onların hər cür problemlərinin qarşısını ala bilər.

Müəllim bütün şüurlu həyatını gənc nəslin təhsilinə, maariflənməsinə sərf edir. Müəllim adı hər bir zaman xalqımızın təfəkküründə ziyalılıq, ucalıq və mənəvi saflıq simvolu kimi xatırlanmış, böyük hörmətlə çəkilmişdir. Hər il hər bir ölkədə müəllimlər günü qeyd olunsada, Azərbaycanda müəllimlər günü 1993-cü ildən elan olundu. Hətta müəllimlər günü ərəfəsində ulu öndərimiz Heydər Əliyev: *"Mən dünyada müəllimlik məsləyindən üstün başqa bir məslək tanımıram., Müəllim adı şərəfli addır. Müəllim adı ən yüksək bir addır."* dediyi bu sözü ilə bu peşə sahiblərinə böyük dəyər verdiyini nəzərə çatdırmışdır.

Eyni zamanda müəllimlər peyğəmbəri bir məsləyin yeganə təmsilçiləridir. Müəllimlər həm də, ailələrin cavabdeh şəxslərindən biri sayılır. Necə ki, valideyn övlad münasibətləri nə qədər önəmlidirsə, müəllimlə şagird arasındakı münasibətlər də bir o qədər əhəmiyyətlidir.

Müəllimin qəlbində *"Yaradılanı Yaradandan ötrü sevmək"* sözləri yer tutmalıdır. Bir müəllim ilk başda şagirdlərinin sevgisini qazanmalıdır. Belə olduqda onların hər cür problemlərinin qarşısını ala bilər. Bundan əlavə, məsləyinə də dəyər verməyi bacarmalıdır. Çünki sevməyərək, is-

təməyərək gördüyü bir işdə nə uğur qazana bilər, nə də çalışqan tələbə yetişdirə bilər.

Müəllim elmini gündən-günə inkişaf etdirməyi bacarmalıdır. Bir əkinçi əkdiyi buğdasını becərdiyi zaman ona hər cür qayğı göstəir, müxtəlif həşəratlardan qoruyur, onun bol məhsul verməsi üçün mübarizə aparırsa, müəllim də şagirdlərinin yetişməsində o cür qayğı göstrərməlidir. Müəllim bir könül dəryası olmalıdır, hər zaman irəliyə doğru axmalıdır, ətrafına gözəllik və fərahlıq verməlidir.

Bir millətin yaşaması milli və mənəvi mənliyini bilməyinə bağlıdır. Bu şüuru şagirdlərə müəllim verməlidir.

Müəllimin əsas məqsədi var olma qayəsinə uyğun olaraq, insan fikrini inkişaf etdirmək, davranış və duyğularının tənzimləmək, fikir və düşüncələrində söz və hərəkətlərlə doğru yol göstərmək, dünya və axirətdə xoşbəxt olacaq yaxşı bir insan yetişdirmək olmalıdır. Müəllim təlim-təhsili bilməyən insanlara doğru yol göstərməli, əllərindən tutmalıdır. Bu yüksək vəzifəni öhdəsinə götürən müəllimin müxtəlif elmlərdəndən xəbərdar olması, çox oxuması, dərslərə hər zaman hazırlıqlı girməsi, yenilikləri izləməsi, şagirdlərin psixologiyasını yaxşı bilməsi lazımdır.

"Məni Rəbbim tərbiyə etdi, nə gözəl tərbiyə etdi.", deyən Rəsulullah (s.ə.s) nümunə müəllim olaraq özünü bütün bəşəriyyətə təqdim etmişdir. Hər sahədə olduğu kimi, təhsil sahəsində də bizə ən gözəl nümunə olmuşdur. Onun həyatı müəllimlərin yolunu aydınladan saysız-hesabsız nümunələrlə doludur.

Müəllim şagirdlərinə etdiyi nəsihətləri, bir sıra əxlaqi bilikləri əvvəlcə öz nəfsində tətbiq edərək nümunə ol-

malıdır. Çünki müəllimlər öz şagirdləri üçün nümunə olan şəxslərdəndir.

Müəllim ailənin vəkili sayıldığından şagirdlərinin bütün dərd və problemləriylə maraqlanmalı, ailə üzvlərinin göstərdiyi həssasiyyatı göstərməlidir. Lazım gələrsə dostcasına söhbət etməlidir. Müəllimində ata-ana şəfqəti, dostcasına bir səmimiyyət görən şagird ona qarşı hədsiz sevgi və hörmət bəsləyəcəkdir.

Müəllimin diqqət etməsi lazım olan sahələrdən biri də şagirdinin anlama səviyyəsini bilməsi və ona uyğun hərəkət etməsidir. Tələbələrin idrakını çətinləşdirəcək, yaxud bezdirici mövzularda boş yerə təkrarlar etməməlidir, mövzunu tələbənin qavrayacağı səviyyədə, hətta bəzi jest və mimikalarla əyləncəli hala gətirərək verməlidir. Səbirli olmalı və əsəblərinə hakim olmalıdır, səmimi, mülayim və bu kimi bəzi xüsusiyyətlərə sahib olmalıdır.

Ümid edirik ki, müəllimlərimiz sabaha hazırladıqları gənclərin qəlbinə iki cahan xoşbəxtliyini yaşada bilən gözəlliklərin toxumunu atacaq, bağçada ətirli güllər yetişdirməyə nail olacaqlar.

Vüsalə QULİYEVA

“Övladım əzizdir, tərbiyəsi ondan əziz”

Hər bir valideynin üzərində bir haqdır ki, övladını maddi, mənəvi, dini, əxlaqi və məslək baxımından layiqincə yetişdirsin. Bu məsuliyyətli bir vəzifənin öhdəsindən gəldikdən sonra valideyn, həqiqətən, cəmiyyətin bir parçası olan övladını müstəqil bir həyata əminliklə təslim edə bilər. Bəs, tərbiyə zamanı valideynlər hansı çətinliklərlə üzləşirlər. Təkcə bəslənmə, geyim-keçim ehtiyacını ödəməkdirmi övlad tərbiyəsi, yoxsa istədiyi hər şeyə razı olmaqdırmı? Bunun üçün valideynlər ilk növbədə öz övladlarını tanımağa çalışmalıdırlar. Onların arzularını, istəklərini açıqlamalarına imkan yaratmaq, həqiqətən, uşaqda valideynə qarşı inam və güvənc hissi yaradar. Əlbəttə, bəzi valideynlərin uşağın çox sual verməsindən narahat olmaları və onu susdurmağa çalışması bir xətadır. Bu mənada, pedaqoqların bir fikrini nəzərə çatdırmaq yerinə düşər. Onların fikrincə, çox sual verən uşaq zəkalı, dünyagörüşlü olur. Gördüyü hər bir şeyi tanımağa, öyrənməyə, bilməyə çalışır. Bu keyfiyyətdən istifadə edərək uşaqların suallarını cavabsız qoymaq və ya susdurmaq əvəzinə, onlara doğru olanı söyləmək ən yaxşı metod və yoldur. Suallar cavabsız qalarsa, uşağın öyrənmə, araşdırma qabiliyyəti aşağı səviyyədə olar və ya heç inkişaf etməz. Elə də olur ki, valideyn övladının çox sakit olmasından və danışmağı xoşlamamasından narahat olur. Belə vəziyyətdə valideyn övladı ilə danışmalı, onunla yaxından dost olmalı, onun daxilindəkiləri öyrənməli, onun marağını cəlb edəcək vasitələrdən (şəkil çəkdirmək, oyuncaqlarla oynatmaq, dostlarıyla baş-başa buraxmaq və s.) istifadə etməlidir. Əks təqdirdə uşaq psixoloji problem yaşayaraq, cəmiyyətdən uzaqlaşıb təkliyə meyilli olar. Bu da, uşağın dostluq qurmaq, sahib olduğu şeyi başqası ilə paylaşma və ya başqasına kömək etmə kimi duyğularının inkişaf etməməsinə səbəb olar. Əlbəttə ki, burada az yaşlı uşaqların psixoloji tərbiyəsindən danışılır. Yeniyetmələrdə isə belə hallar: sakitlik və ya az danışma hallarını onların artıq çox düşünməyə, qərar verməyə başlamaları ilə əlaqələndirmək olar və ya başqa cür təhlil

etmək olar. Bəzən valideynlər səhv dəyərləndirmə edərək övladlarının xoşbəxtliyini yalnız onların maddi ehtiyaclarını ödəməkdə görürlər. Tərbiyədə əsas meyar olan sevgi, şəfqət, mərhəmət etmək kimi uşağın tərbiyəsində vacib olan bir çox nüansları yaddan çıxarır, bu duyğuları onlardan əsirgəyirlər. Diqqət edin valideynlər, mənəviyyatları boş qalan uşaqlar o qayğını, münasibəti, o şəfqəti, mərhəməti, sevgini aldanaraq məcburən kənardan, yad insanlardan qəbul edəcəklər. Çünki o körpə ailədə vacib olan və haqqı olduğu o sevgini, şəfqəti, qayğını görməzsə, kənar mühit aldadıcı sevgiylə, sanki mərhəmət edirmiş kimi onları pis alışqanlıqlara dəvət edəcək. Yaradılış etibarilə dünyaya pak olaraq gələn uşaq, valideynin məsuliyyətsiz davranşının nəticəsində cəmiyyətin sevmədiyi bir insan olur. Şəfqətdən, mərhəmətdən, sevgidən məhrum qalan uşaqda, yeniyetmədə acıma duyğusu zədələnir. Valideyn diqqətindən kənar qalan, əhəmiyyət verilməyən, qiymətləndirilməyən uşaqda onlara qarşı inam olmur və bu inamsızlıq onun ətraf mühitə olan münasibətinə də təsir edir.

Dinimizdən, adət-ənənələrimizdən bilirik ki, uşaqlar təkcə maddi deyil, mənəvi cəhətdən də lazımınca bəslənməli, yetişdirilməlidir. Əks təqdirdə əxlaqı zəif insanlar yetişərək cəmiyyətin hüzurunu pozur və bundan təkcə ailəsi deyil, bütün cəmiyyət əziyyət çəkir. Bu kimi zərərlərin qarşısını almaq üçün ata-ana Hz. Peyğəmbəri örnək alaraq övladını öpüb-oxşayacaq, xətalarını bağışlayacaq, onlarla zarafatlaşacaq, onların uşaq dünyasına qatılacaqdır. Araştırmalara görə, uşaqlar ətrafdan sevgi və dostluq gözləyirlər. Əlbəttə, tərbiyədə həddən artıq sevgi, əzizləmə nazlı böyüdülmə də doğru deyil. Bu da, uşağın ərköyünlük xüsusiyyəti qazanmasına səbəb olur.

İş burasındadır ki, nazlı böyüdülən uşaq da sərbəst iradəyə sahib ola bilmir. O da, valideyndən asılı olur, onun qərarlarına bağlı qalır. Bütün bu faktları nəzərə alaraq qeyd etmək lazımdır ki, uşağa olan həqiqi sevgi onu nə həddən artıq əzizləyib oxşamaq, nə də həddən artıq təzyiq, qorxu altında yetişdirməkdir. Uşaq təbii haqqı olaraq güləcək, ağlayacaq, yıxılıb-qalxaraq böyüyəcəkdir. Kənar təsir olmadan öz istəklərini ifadə edə biləcək müəyyən olunmuş bir çərçivədə rahat şərait yaradılacaq. Pedaqoqların fikrinə görə, ən yaxşı tərbiyə sevgiyə soyuqqanlılıq qatılmasıdır. Yekun olaraq onu deyək ki, hər şeyin əsasında sevgi, mərhəmət gəlir. Bunlar kifayət qədər olarsa, uşaq da ruhən doğru tərbiyələnib xalqına, vətəninə xeyirli bir övlad, layiqli vətəndaş olar.

Hər bir valideynin üzərində bir haqdır ki, övladını maddi, mənəvi, dini, əxlaqi və məslək baxımından layiqincə yetişdirsin. Bu məsuliyyətli bir vəzifənin öhdəsindən gəldikdən sonra valideyn, həqiqətən, cəmiyyətin bir parçası olan övladını müstəqil bir həyata əminliklə təslim edə bilər.

Şərəfli ömrün örnək səhifələri

Bizim Ailə: Bəhicə xanım sizin yaşadığınız ömür yolu hər kəsin yaşadığı bir həyat deyil. Bizim ailə jurnalının oxucularına öz həyat yolunuz haqqında danışasınız.

Bəhicə Xalid Səid qızı Xocayeva: Mən ilk təhsilimi Bakıda açılmış alman məktəbində almışam. 1937-ci ildə atamı həbs etdilər. Atamdan sonra oktyabrın 13-də anamı da həbs edib Qazaxıstana sürgün etdilər. Mən xalamın Cahan Talışınskayanın himayəsinə keçdim. Anamın Stalinə məktubundan sonra onu sürgündən geri qaytardılar, lakin Bakıda yaşamağa icazə vermədilər. Mən təhsilimi yarımçıq qoyub anamla Gəncəyə, sonra Şəmkirə getdim. Mənəvi cəhətdən sarsılan və xəstələnən anam çox yaşamadı. Bir neçə il sonra mən yenidən Bakıya qayıtdım, təhsilimi davam etdirməyə başladım, Xarici Dillər Universitetinə daxil oldum, lakin diplom aldıqda məndən attestat istədilər, mən atam həbs olunan zaman təhsilimi yarımçıq qoyduğum üçün mənim attestatım yox idi, bunun üçün mən 132 saylı məktəbi eksterni bitirməli oldum. Mənim təyinatımı 1948-ci ildə əvvəllər ***"Müqəddəs Nina"*** adlanan, indiki 132 saylı orta məktəbə göndərdilər. Bu müddətdə bu gün Azərbaycan mədəniyyətində və siyasi tarixində xüsusi mövqeyi olan bir çox məşhur insanlar mənim şagirdim olmuşdur. Bunlardan şərqşünas alim Aida İmanquliyeva, Nərmin Sultanlı, Elm və həyat jurnalının baş redaktoru Ülkər Hüseynova, Aybəniz

BƏHİCƏ XALİD SƏİD QIZI XOCAYEVA

Bəhicə Xocayeva Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Atası dövrünün görkəmli alim türkoloqu, milli ideoloji fikir və mədəniyyət tariximizdə xüsusi yeri olan, dövrünün başqa açıqfikirli insanları kimi Stalin repressiya maşınının qurbanı olan Xalid Səid, anası Sara xanım isə ilk milli hökumətin qurucularından və Azərbaycan hərb tarixini yazanlardan biri Mehmandarovlar və mədəniyyət tariximizdə Talışınski kimi tanınan məşhur nəslin davamçılarından idi. Çox qısa bir ömür yolu keçən Xalid Səidin həyat və fəaliyyəti çoxşaxəli və keşməkeşlidir. Bəhicə xanım sovet quruluşunun senzorundan keçməyərək güllələnən görkəmli dilçi, ideoloq atanın və övladını milli ruhda, əsl azəri qızı kimi tərbiyələndirən, sürgünlərdə həyat keçirərək ömür yolunu tamamlayan Sara xanımın, Xocayevlər nəslinin davamçısıdır.

Hər bir kəs müəllim ola bilməz. Necə ki, hər bir insan həkim, mühəndis, jurnalist, hüquqşünas ola bilməz. Bilikli, təhsilli olmaq əsas məsələlərdən biridir. Lakin ən vacib məsələ və pedaqoji fəaliyyətdə əsas prinsip müəllim olmaq istəyənin bu peşəyə sevgisinin, həvəsinin olmasıdır.

Vəkilova və başqaları əminəm ən sevimli tələbələrimdən olmuşlar. Atam repressiya qurbanı olduğu üçün mənim aspiranturaya oxumaq hüququm olmadığı üçün mən elmi fəaliyyətimi davam etdirə bilmədim. 1969-cu ildə AMEA Aspirantura və Doktorantura şöbəsində xarici dil kafedrasının müəllimi kimi işləməyə başladım. Sonralar mən pedaqoji fəaliyyətimdəki nailiyyətlərimə görə müəllimlərin Təkmilləşdirmə İnstitutuna metodist kimi dəvət olundum, bu zaman mənim metodiki dərs vəsaitim çap olundu. Bir neçə müddətdir təqaüdə çıxsam da, ətrafımda olan ingilis dilini öyrənməyə çalışan uşaqlarla məşğul oluram, indi bu uşaqların çoxu Amerikanın, İngiltərənin, Kanadanın və başqa Avropa ölkələrinin məşhur Universitetlərində təhsil alırlar.

Bizim Ailə: Ali təhsil alan hər bir kəs müəllim ola bilərmi, pedaqoji fəaliyyətdə bilik kifayət edirmi?

Bəhicə Xalid Səid qızı Xocayeva:

Bu suala cavab vermək çox çətindir. Lakin onu da qeyd edim ki, bu sual indiki məqamda yerində verilmişdir. Hər bir kəs müəllim ola bilməz. Necə ki, hər bir insan həkim, mühəndis, jurnalist, hüquqşünas ola bilməz. Bilikli, təhsilli olmaq əsas məsələlərdən biridir. Lakin ən vacib məsələ və pedaqoji fəaliyyətdə əsas prinsip müəllim olmaq istəyənin bu peşəyə sevgisinin, həvəsinin olmasıdır. Çünki peşənə, ixtisasına sevgi olmasa, heç bir şey gözəl olmayacaq. Bu prinsip təkcə müəllim ixtisasını seçənlər üçün deyil, digər peşələri seçənlər üçün də ən mühüm amildir. Ola bilər ki, fəaliyyətə başladığı ilk günlərdə kifayət qədər biliyə sahib olmayasan, zaman keçdikcə təcrübə qazanır, elmin yeni nailiyyətlərini öyrənir, onları tədrisdə tətbiq edir, dərslərdə müasir üsullardan istifadə edirsən. Bir də onu qeyd edim ki, müəllimlik həm də insanın canında, qanında olmalıdır. Bu sənəti seçən hər bir insanın içindən gələn müəllimlik istedadı, metodikası olmalıdır. Müəllim həm də yaradıcı olmalıdır, uşaqlarla fərdi yanaşmanın yollarını bilməlidir.

Bizim ailə: Bu gün xarici dilin tədrisi və öyrənilmə səviyyəsi sizi qane edirmi?

Bəhicə Xalid Səid qızı Xocayeva: Bizim dövrümüzdə xarici dil öyrədilirdi, lakin məlum olduğu kimi qapalı bir rejimdə yaşayırdıq. Belə bir şəraitdə xarici dili təkmilləşdirmək, daha modern üsullardan istifadə etmək imkanı məhdud idi. Bu gün müstəqil dövlətimiz təhsil almaq üçün, müasir elmi biliklərə yiyələnmək üçün çox rahat və münbit bir şərait yaratmışdır. Müvəffəqiyyətli təhsildə müəllimlərin təcrübəsindən, dərslərə qarşı məsuliyyətli olmalarından da çox şey asılıdır. Tədrisə müxtəlif əyani vəsaitlər, üsullar tətbiq etmək, fənni sevdirmək üçün dərnəklər təşkil etmək lazımdır. Bir şeyi də qeyd etmək lazımdır ki, müəllim öz geyimində, davranışında nümunəvi olmalıdır. Mən öz dərslərimi bu prinsiplər əsasında qurmuşam.

REPORTAJ: Qətibə VAQİFQIZI, Mədinə ƏLİYEVA

Sevinc ASLANOVA

Uşaqlar gələcəyə inamla baxsınlar

Bir vaxtlar o kənddə səhərlər xoruzların banlamasıyla açılardı. Sanki bu səslər, məktəbə gedən uşaqların birinci zəngi idi. Yuxudan durub pəncərəni açıb günəşin doğuşunu seyr edərkən budaqları pəncərəyə çatan yasəmən çiçəklərinin ətri otağı bürüyərdi. Yağış yağarkən eyvanda oturub üzüm yarpaqlarının üzərinə damlayan damcı səslərini dinləmək insanı valeh edərdi. Eyvana çatmaq üçün sanki üzümlə boy ölçüşən qızıl güllərin ətri ilə, bir fincan kəklikotu çayının ətrinin bir-birinə qarışması ayrı bir ləzzət idi. Bir yandan da, bulağa səhənglə su daşımağa gələn qızların yağışdan qaçışını izləmək insanı başqa zamanlara, nağıllar aləminə apararDı. Bu gözəl mənzərəni bir də bulağın axarında yerləşən bir-birinə dar boğazla birləşmiş iki kiçik göl tamamlayırdı. Göl kənarındakı *"göl yeri"* olaraq adlandırılan göy çəmənlik isə məktəbdən qayıdan uşaqların oyun yeriydi. Qızların ən çox sevdiyi məşğuliyyət isə çay kənarından kəklikotu yığmaq idi. Onlar kəklikotundan çox, bənövşə ilə evə dönərdilər. Qızlar çay kənarından bənövşə toplayarkən, mərücə yığmaq üçün dağa çıxan oğlanlar isə nərgiz və novruzgülü toplayardı. İnsan düşündükcə belə günlərin bir gün bitəcəyinə inana bilmir. Gündüzünü quşların cəh-cəhi bəzəyən bu güllü- çiçəkli vətənin, axşamını otlaqdan qayıdan qoyun-quzu sürüsünün mələşmə səsləri daha da canlandırardı. Bu canlılıq gecələr cırcırama səsləriylə davam edərdi. Aydın səmada sayrışan ulduzlar isə ayrı bir bəzəyi idi o gözəl gecələrin.

Bir gün hər şeyin bitdiyini bildirən bir həyəcan təbili çalındı sanki. Hər şey durğunlaşdı, aydın səma bulandı, *"Yaşıl gözəl"* qırmızı qanla bəzəndi, qara geyindi. Səhərlər silah səsləriylə açıldı, hava barıt qoxusuyla kirləndi, quşlar cəh-cəh vurmadı, güllər açılmadı, sular durulmadı, uşaqlar hər zamankı oyun yerinə gedə bilmədi. Artıq uşaqların oyun yeri bombadan qorunmaq üçün qazılmış sığınacaqlar, səngərlər oldu. Biz o uşaqların oyun oynadığını, silah səslərini anlamadığını zənn etsək də, onların uşaqlıq xəyalları

çoxdan bitmiş, xəbərimiz yoxmuş. Sığınacaqda oyun oynadığını düşündüyümüz yeddi yaşlı bir uşağın cibindən tapdığımız içi torpaq dolu dərman qabı bu acı həqiqəti üzümüzə vurdu. O torpaq vətən torpağıydı, o torpaq ana deyib, qoynunda yatdığımız, qoynunda yatarkən tapdığımız hüzuru, rahatlığı başqa heç bir yerdə tapmadığımız doğma vətənimizin torpağıydı. Biz böyüklər hər şeyə ümidlə baxarkən, o körpə qəlbiylə sanki hiss etmişdi ana vətənindən ayrı düşəcəyini və *"ana"* sının ətrini, qoxusunu daima duymaq üçün o torpağı cibində daşıyırdı. Halbuki, bütün uşaqların ən təbii haqqı anasının qoxusunu, onun qoynunda yataraq hiss etməsidir. Qoy bütün dünya uşaqları daima anasıyla qucaq-qucağa yatsınlar! Onları birbirindən ayırmağa heç kəsin haqqı yoxdur. Onlar bəşəriyyətin gələcəyidir, uşaqlar gələcəyə inamla baxmasalar, demək ki, bəşəriyyətin gələcəyini işıqlandıran nur sönmüşdür. Bütün dünya uşaqlarına müharibəsiz, xoşbəxt və iman dolu bir gələcək nəsib etsin Uca Allah!

Uşaqlar gələcəyə ümidlə baxmalıdırlar, eyni zamanda millətinin keçmişini də bilməlidirlər. Xalqının keçmişini bilməyən insan, xalqı üçün bir gələcək də qura bilməz. Biz tariximizi uşaqlarımıza öyrətməliyik ki, dərs alsınlar, əcdadlarımızın etdiyi xətaları etməsinlər, dostdüşmənini tanısınlar. Qardaş deyib bağrına basdığı ilanın bir gün onu sancacağını bilsinlər. Necə ki, biz qardaşlıq nəğmələri oxuyaraq özümüzü aldadırkən, ermənilər öz uşaqlarına Türkün düşmən olduğunu aşılayıb, ilan kimi sancmağın zamanını gözləyirdilər. Uşaqlar nadinclik etdiyi zaman, *"tork gəlir"* deyib türkün dəhşətli bir şey olduğunu, düşmən olduğunu yavaş-yavaş beyinlərinə yeridirdilər uşaqların. Amma təəssüf ki, biz qəlbi yumşaq bir millət olduğumuz üçün bizə edilən pislikləri tez bağışlayırıq, unuduruq. Bizə edilənləri unutmamalı, unutdurmamalı, xətaların təkrarına icazə verməməliyik. Bunun üçün sağlam ruhlu, tarixini bilən bir nəsil yetişdirməliyik. Silaha qarşı elm ilə, imanıyla mücadilə edə biləcək bir gələcəyimiz olmalıdır. Uşaqlarımız bizə Allahın əmanətidir. Onlara bu gözlə baxıb, əmanətə xəyanət etməməliyik. Gözümüz kimi qorumalı, Allah sevgisiylə, vətən sevgisiylə, millət sevgisiylə yetişdirməliyik. Bu böyük məsuliyyət isə ilk növbədə ailənin, sonra isə cəmiyyətin digər müəssisələrin üzərinə düşür.

Uşaqlarımız bizə Allahın əmanətidir. Onlara bu gözlə baxıb, əmanətə xəyanət etməməliyik. Gözümüz kimi qorumalı, Allah sevgisiylə, vətən sevgisiylə, millət sevgisiylə yetişdirməliyik. Bu böyük məsuliyyət isə ilk növbədə ailəyə, sonra isə cəmiyyətin digər müəssisələrinə düşür.

Meryem DEMİR

QÜRBƏTDƏN VÜSALA HƏSRƏT

İndi oturub, qürbət haqqında qəlbin ağrıya-ağrıya yazı yazmaq vaxtıdır. Qürbət ağla gələndə axan sular durur, sözlər aciz qalır. Nədir qürbət? Nədir əhdə vəfa? Qürbəti dünya həyatımı öyrədir, yoxsa ələst-bezmindəmi öyrənmişdik? Bir vaxt Allah Təala ruhları yığaraq: "*Mən sizin Rəbbiniz deyiləmmi?*"-deyə, soruşmuşdu. Biz isə, *"Bəli! Sən bizim Rəbbimizsən"*-demişdik. Bəs, verdiyimiz sözü xatırlayırıqmı? Bu səbəbə görə, bəzən biz tanış simalarla qarşılaşanda, *"Sanki bu anı yaşamış, elə bil, bu insanı haradasa görmüşdüm."* Halbuki, o, Azərbaycanda dünyaya göz açmış, biz isə Türkiyədə. *"Ələst-Bəzmində"*, Ruhlar aləmində ruhlarımız tanışdır bəlkə də. Bəs indi niyə yada salmırıq? Çünki nəfsimiz, eqoistliyimiz girdi fani bədənlərimizə.

Bəs, dünya həyatında Yaradanımızı xatırlamanın adı nə idi? Əlbəttə ki, *"zikr"*-dir. Mənası *"öncədən verilən sözü yada salmaq"*dır. Bir başqa mənası isə bu dünyada Allah Təalanı xatırlamaq, dil ilə anmaq, qəlbimizin dərinliyində hiss etməkdir. Digər bir ifadə ilə- *"Ələst–Bəzmində"* verdiyimiz sözə sadiq olmaq... Biz isə yaradılana verdiyimiz sözə sadiq ola bilmirik. Allah Rəsulu bu halı münafiqlik adlandırır. Bəs, Yaradana verdiyimiz söz! Görəsən, bu halımız necə dəyərləndirilə bilər?!

Zikr-qəlblərimizin yetkinləşməsi, səviyəyə çatması üçün ruhlarımızın ehtiyacıdır. Ruhlarımızın hüzura çatması üçün qəlblərimizin tələbatıdır. Qürbət həyatını vüsala döndərmənin yolu zikrdən keçir.

Dünya həyatında da yaşamırıqmı qürbəti? Ata-anadan ayrı düşmənin digər adı deyilmi qürbət? Yadına düşəndə insanı hüznlə dolduran, atanın səmimiyyətini xatırladan, xəstələnsə, anasının isti şorbasını arzulamaqdır qürbətin adı.

Bəs, qullarına ana-atasından daha mərhəmətli olan Allah Təaladan uzaqlıgımız, ayrılıgımız bizi nə qədər düşündürür? Nə qədər hüznləndirir qəlblərimizi? Nə qədər yaşardır gözlərimizi? Yoxsa, azmı yada salırıq Rəbbimizi? İnsan sevdiyini dilindən düşürməz, onun hər istəyini yerinə yetirərmiş. Rəbbimizin əmrlərini həyatımıza nə qədər tətbiq edirik? Peyğəmbər əxlaqı həyatımıza nə qədər təsir edir? Budur əsl qürbət, əhdə vəfa, əsl dost, həqiqi sevgili, qəlblərimizin mərkəzinə yerləşdirməmiz vacib olan....Məşhur bayatıda nə gözəl deyilir: "*Gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı.*" Bu gözəl misralara əlavə olaraq bunu qeyd etmək lazımdır ki, əsl öz vətənimizdə dirilmək olsun məqsədimiz. Vətəniniz cənnət olsun ...

Xəyalə ABDULAZİM

MƏNİM İLK HƏYAT MƏKTƏBİM

Mənim keçdiyim ən gözəl məktəb yolu sənin sevgi dolu ürəyindir. Bu sevgi dolu ürəyin hekayəsi mərhəməti sonsuz Rəbbimizin hikmətilə Hz. Həvva anamızla başladı və Rəbbimizin Rəhman sifətinin daha gözəl təcəllisiylə, sonsuz hikmət sahibinin lütfüylə ana bətnindəykən kiçik bir su damlasından kamil bir insana çevrilərək, dünya ilə görüşə hazırladığımız ilk evimizin də məhz ana rəhmi deyə adlandırılmasıyla gözəlləşdi. Hz. Məryəm anamızın Allahın təqdiriylə atasız övlad dünyaya gətirməsiylə pünhanlaşdı, Hz. Xədicə anamızın ən sıxıntılı anlarında həyat yoldaşını və övladlarını şəfqət qanadlarının altına almasıyla fədakarlaşdı, Hz. Sümeyyə anamızın zərif cisminin şəhid oluşuyla şərəfləndi, Hz. Rumeysa anamızın Peyğəmbərə (s.ə.s) xidmət etsin deyə, övladından ayrı qalmağa razılığıyla ülviləşdi, Ümmü Eymən (r.a) anamızın yetimlərin ən gözəlinə doğma övladı kimi qollarını açmasıyla paklaşdı, Hz. Aişə anamızla öz doğma övladı olmasa belə, Allah tərəfindən bütün ümmətə ana olma nemətiylə şərəflənməsiylə zənginləşdi, Hz. Zeynəb anamızla hələ ana bətnindəki övladını gözlənilməz müşrik basqını nəticəsində itirsə, belə səbirli olmasıyla abidələşdi, Hz. Fatimə anamızla iki cənnət sərvəri övladlara ana olmasıyla zirvələşdi sənin sevgi dolu ürəyin, anacan.

Rəbbim mənə insan olmağı lütf etdi, sən isə məni dünyaya gətirdin. Sən mənə yemək yeməyi, su içməyi, addım atmağı, ən başlıcası, insan olmağı öyrətdin. Sən mənim ilk həyat bələdçim, ilk həyat müəllimim oldun. Uşaq ikən danışdığın nağıllar, oxuduğun nəğmələr bəzən bu gün kimi yadıma düşür. Həyat səhifələrimi vərəqlədikcə hər nə qədər sənə bənzəməyə səy göstərsəm də, sən olmağa can atsam da, sən hər zaman mənə mən olmağı öyrətdin. Nə qədər yaxşı şagird olmağa çalışsam da, çox zaman həyat dərslərindən ürək açan qiymətlər almadım. Sənə yaxşı şagird ola bilməsəm də, bu gün səni örnək alaraq övladıma yaxşı müəllimə olmağa çalışıram. Onu sənin məni oxşadığın kimi oxşayır, məni tərbiyə etdiyin kimi tərbiyə edirəm. Mən sənin kimi sevməyi öyrənmək istəyirəm. Mənə sevməyi öyrətdiyin üçün sənə minnətdəram. Həyat dərslərindən əla qiymətlər almaq arzusuyla qarşıdan gələn müəllimlər gününü təbrik edirəm. Sənlə fəxr edirəm, mənim ilk həyat müəllimim.

Sevinc Əfəndiyeva

Möminlərin anası Hz. SEVDƏ

Hz. Sevdə Peyğəmbərimizə qarşı çox itaətkar idi. Ona qarşı ədəb və tərbiyəsində heç qüsur etməz, əmirlərini düzgün bir şəkildə yerinə yetirirdi. Hər yerdə onunla bərabər olmağı və ona xidmət etməyi canla-başla istəyərdi.

Peyğəmbər (s.ə.s) Hz. Xədicə anamız vəfat etdiyi zamanlar çox kədərli idi. Ailə həyatında sanki bir boşluq meydana gəlmişdi. Ətrafındakılar ona təsəlli və kömək edəcək olan bir xanımın olmasını düşünürdülər. Osman b. Mazunun xanımı Həvlə, bu məqsədlə peyğəmbərimizin hüzuruna getdi. Xədicənin yoxluğu, dogrudan da hiss olunurdu. *"Ya Rəsulallah, yanınıza gəldikdə Xədicənin yoxluğunu həmin an hiss etdim,"*- dedi. Peyğəmbərimiz: -*"O, övladlarımın anası idi,"*- buyurdu. Bundan sonra Həvlə fikrini açıq söylədi: -*"Ya Rəsulallah, evlənmək istəmirsinizmi?"*- deyə, soruşdu. Peyğəmbərimiz: -*"Bəli, uyğun bir xanım olarsa..."*- buyurdu. Və Həvləyə fikrində kimləri tutduğunu soruşdu. Həvlə, Hz. Əbubəkirin qızı Aişə ilə Sevdə binti Zema olduğunu söylədi. Peyğəmbərimiz: - *"Get, mənim adıma onların ikisi ilə də danış."*- dedi.

Həmin vaxt Hz. Aişə çox kiçik idi. Yaşı evlənmək üçün uyğun deyildi. Peyğəmbərimiz onunla yalnız nişanlanmağı düşünürdü. Hz. Sevdə isə əri ilə bərabər İslamı ilk qəbul edənlərdən idi. Bu bəxtəvər ərarvad bütləri qırıb iman etdiklərinə görə müşrik olan qohumları və digər müşriklər tərəfindən müxtəlif işgəncələrə məruz qalmış, işgəncələr dözülməz hala gəldiyinə görə bir çox müsəlman kimi onlar da Həbəşistana köç etmək məcburiyyətində qalmışdılar. Məkkəyə geri qayıtdıqdan sonra Hz. Sevdənin yoldaşı vəfat etdi. Hz. Sevdə beş balaca uşağıyla dul qaldı. Maddi vəziyyətləri çox ağır idi.

Peyğəmbərimizin istəyi ilə Hz. Sevdəyə elçi gedən Həvlə, bu müjdəli xəbəri Sevdeyə bildirmək üçün çox tələsirdi. Sevdənin evinə

gəldi və *"Rəsulallah məni sənə elçilik etməyim üçün göndərdi."*, - dedi. Hz. Sevdə bu müjdəli xəbərə çox sevinir, eyni zamanda çox həyəcanlanırdı. Həyacanının səbəbini bir vasitəylə Peyğəmbərimizə bildirərək b*elə dedi:*

- *"Ya Rəsulallah, Vallahi, sizinlə evlənməyim üçün qarşımda heç bir maneyə yoxdur. Ancaq uşaqlarımın sizi narahat etməsindən çəkinirəm."*

Peyğəmbərimiz (s.ə.s) Hz. Sevdəyə *"Allah sənə rəhmət etsin. Qadınların xeyirlisi kiçik uşaqları səbəbiylə çətinliklərlə qarşılaşandır."*-deyə, buyurdu.

Hz. Sevdə yoldaşının vəfatından bir neçə gün əvvəl yuxusunda peyğəmbərimizin mübarək əllərini onun çiyninə qoyduğunu görmüşdü. Yuxunu dinləyən yoldaşı: *"Ey Sevdə, bu yuxu mənim vəfatıma, sənin isə peyğəmbərimizlə evlənəcəyinə bir işarədir."*- dedi.

Bir neçə gündən sonra Hz. Sevdə başqa bir yuxu gördü. Yuxusunda özünü bir yastığa söykənmiş, göy üzündən enən ay da başının ətrafında dönmüşdü.

Bu yuxudan da bir neçə gün sonra Hz.Sekran vəfat etmişdir.

Beləliklə, Hz. Sevdə peyğəmbərliyin 10-cu ilində Rəsulallahın ikinci xanımı olmaq şərəfinə qovuşdu.

Hz. Sevdə Peyğəmbərimizə qarşı çox itaətkar idi. Ona qarşı ədəb və tərbiyəsində heç qüsur etməz, əmirlərini düzgün bir şəkildə yerinə yetirərdi. Hər yerdə onunla bərabər olmağı və ona xidmət etməyi canla-başla istəyərdi.

Hz. Sevdə də Peyğəmbərimiz (s.ə.s)lə birlikdə digər qdınları kimi sırası gələndə müharibədə iştirak edirdi. Uhud müharibəsində bir çox müsəlmanın yarasını sarımış, onlara su daşıyaraq xidmət etmişdir. Peyğəmbərimiz(s.ə.s) lə son vida haccında olmuşdur. Onun vəfatından sonra bir daha həcc və ümrəyə getməmişdir.

Hz. Sevdə peyğəmbərimizlə nikahlandığı zaman bir xeyli yaşı vardı. Rəsulallahla evlənməsinin tək məqsədi peyğəmbərimizin xanımı olmaq şərəfinə nail olmaq idi. Hz. Sevdə öz niyyətində nə qədər səmimi olduğunu peyğəbərimiz üç il sonra Hz. Aişə ilə nikahlandığında bir daha sübut etdi. Peyğmbərimizə belə dedi: - *"Mənim tək istəyim sizin xanımınız olmaq şərəfinə nail olmaq idi. Mən öz növbəmi Hz. Aişəyə bağışladım."*

Peyğəmbərimiz də bu əzizə xanımı həm onu müşriklərin işgəncələrindən qorumaq, həm də dinini rahat yaşamaq xətrinə arxasına baxmadan köç etdiyinə görə mükafatlandırmaq üçün nikahı altına almışdı. Peyğəmbərimizin əsas məqsədi dul xanımı və beş yetim uşağı qorumaq idi. Buna görə də bu evlilikdə himayə və şəfqət əsas rol oynayırdı.

Rəna MİRZƏLİYEVA

Dilin bəlası QEYBƏT

İnsanın bir çox mənəvi xəstəlikləri vardır. Bunlardan biri də qeybətdir. Qeybət bir insanın arxasından onun qüsurunu söyləmək, əleyhinə danışmaqdır. Bu qüsur onun cismi, soyu, əxlaqı, geyimi, dini ilə əlaqədar ola bilər. Məsələn, onun boyu qısadır, yalan danışandır, əxlaqsızdır demək, qeybətdir və çox günahdır. Bir gün Rəsulullah (s.ə.s) buyurmuşdur:

-" Bilirsinizmi qeybət nədir?

Səhabələr:

- Allah və Rəsulu daha yaxşı bilər,- dedilər. Rəsulullah:

- Qardaşının arxasınca onun xoşuna gəlməyən bir şey haqqında danışmaqdır.

Səhabələr:

- Əgər dediyində eyib varsa, o qeybət olar. Yoxdursa, ona böhtan və iftira atmış olarsan." *(Müslüm Birr 20; Əbu Davud, ədəb 40)*

Qeybətin haram və çirkin bir əməl olduğuna dair Qurani Kərimdə belə buyurulmuşdur:

"Ey iman gətirənlər! Çox zənnə-gümana qapılmadan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi (heç bir əsası olmayan zənn) günahdır. (Bir-birinizin eybini, sirrini) arayıb axtarmayın, bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar (qeybət də belədir). Allahdan qorxun. Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir! (əl-Hucurat 12)

Gördüyümüz kimi, Allah Təala bu ayədə qeybət edən şəxsi ölü qardaşının ətini yeyənə bənzətmişdir. Buna görə də, Allah Təala biz möminlərin qeybət etməməyini

"Ey iman gətirənlər! Çox zənnə-gümana qapılmadan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi (heç bir əsası olmayan zənn) günahdır. (Bir-birinizin eybini, sirrini) arayıb axtarmayın, bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar (qeybət də belədir). Allahdan qorxun. Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir!
(əl-Hucurat 12)

Qeybət insanlar arasında sevgi, məhəbbət, dostluq, səmimiyyət, hörmət hissini məhv edib, iki insan arasında inciklik, küsüşmə kimi mənfi münasibətlər yaradır.

əmr etmişdir, çox bağışlayıcı olduğunu xatırlamaqla onların bu günahlardan təmizlənmə yolunu göstərmişdir. Ancaq tövbə etməklə yanaşı, həmin şəxs qeybət etdiyi insandan halallıq almalıdır. Çünki o insanın haqqına girmişdir.

Bir insanın qeybət etməsinin əsas səbəblərindəön biri kin duyğusudur. Sevmədiyi bir insana kin bəsləyərkən onun qeybətini edib, ona lağ edir və bununla da zövq və təsəlli alır.

Möminlərin anası Hz. Aişə bir gün Rəsulullaha dedi:

- "Ey Allahın Rəsulu, Safiyyənin boyu qısadır."

Rəsulullah:

- "Ey Aişə, elə bir söz söylədin ki, əgər o söz dənizin suyu ilə qarışsa, hər halda onu pozardı."

(Əbu Davud, Ədəb 40: Tirmizi, Birr 20)

Rəsulullah qeybət edənlərə qorxulu bir şəkildə əzab ediləcəyini belə bildirmişdir: "Mən merac etdiyim gecə bir qövmün yanından keçdim. Onlar misdən dırnaqları ilə üzlərini və sinələrini cırmaqlayırdılar.

Mən:

- Ey Cəbrayıl, bunlar kimlərdir?- deyə, soruşdum.

- Bunlar insanların ətlərini yeyən, qeybət edən şəxslər, onların şərəf və namuslarına toxunanlardır,"- dedi. *(Əbu Davud Ədəb 40)*

Qeybət etmək günah olduğu kimi, qeybətə qulaq asmaq da günahdır. Qeybəti eşidən şəxs mütləq ona mane olmalıdır. Rəsulullah buyurmuşdur ki, "Bir insan qardaşının namus və şərəfinə toxunana qarşı onu müdafiə edərsə, Allah Təala qiyamət günü onu cəhənnəmdən uzaqlaşdırar." *(Tirmizi, Birr 20)*

Qeybət insanlar arasında sevgi, məhəbbət, dostluq, səmimiyyət, hörmət hissini məhv edib, iki insan arasında inciklik, küsüşmə kimi mənfi münasibətlər yaradır. İstər ailədə, istərsə də cəmiyyətdə hamı bir-birindən şübhələnir, heç kəs başqasına güvənib səmimi bir söz danışmır. Qeybət şübhə toxumu səpir, insanı ikiüzlü, riyakar edir, insanın əxlaqını çürüdür. Belə ailələr uzun müddət davam etmir, tez dağılır. Çünki ailə üzvləri arasında, dost-tanış içində söhbət etdiyimiz, hal-əhval tutduğumuz şəxslər sizdən ayrılanda qorxursunuz ki, bu adamlar arxanızca qeybətinizi edər.

Osman Nuri TOPBAŞ

İslamda Qadının Yeri və Qızların Təlim-Tərbiyəsi

Bir ana ruhunda toplanan sonsuz şəfqətin hüdudlarını təyin edə bilən bir ölçü varmı? Özü yeməmiş yedirmiş, geyməmiş geydirmiş, yatmamış yatırmış... Həyatın fırtınalarında üzərimizə bir toz qonmasın deyə bütün varlığını fəda edən ata və anaların haqlarını ödəyə bilmək mümkündürmü?

Allah təala qadını hiss baxımından kişiyə görə daha zəngin yaratmışdır. Bu duyğu və hiss zənginliyi Allahın qadına verdiyi əsas bir vəzifənin gərəyidir. Bu vəzifə isə, nəslin qorunması və tərbiyəsidir. Bu ilahi nizamdan kənara çıxılarsa qadının yaradılışına xəyanət edilmiş olar.

Zəmanəmizdə qadınlarla kişilər arasında uydurma bir bərabərlik yarışı başladılmışdır. Yaradılışdakı xüsusiyyətlərə zidd olan bu yarış xanımlıq və analıq vəzifələrini zədələmiş, ailənin xoşbəxtlik və rahatlığı yox olmuş, cəmiyyət həyatı sarsılmış, fərdlər şəxsiyyətini itirmişdir.

Qadın və kişinin fiziki, mənəvi yaradılış və fitrətləri bərabər deyil ki, feili və ya hüquqi bərabərlik olsun. Mühüm olan hər sahədə bir bərabərlik deyil, haqlar və vəzifələr arasındakı tarazlıqdır.

Allah təala qadınlar və kişilər arasında birbirlərini tamamlayan çox gözəl bir vəzifə bölgüsü qoymuş və hər ikisinə ayrı-ayrı qabiliyyətlər vermişdir. Qadın və kişi ancaq maddi və mənəvi bütünləşdiyi zaman yaradılış qayəsinə uyğun bir kamillik meydana gəlir, ailə və bunun nəticəsində cəmiyyət xoşbəxt olur.

Qadının kamilliyi Allahın verdiyi gözəl xüsusiyyətləri qoruması və inkişaf etdirməsi ilə ortaya çıxar. Qadın sahib olduğu bu xüsusiyyətləri ilahi nizama tərs bir şəkildə yönləndirər, öz həqiqət və ləyaqətinə vida edərsə qiymətini məhv edər, lətafət, nəzakət və zərifliyini itirmiş olar. Beləcə, cəmiyyət həyatı quraq torpaqlar halına gələr.

Qadının yaradılışına görə yaşaması cəmiyyəti cənnətə çevirir. Qadın, ailədə cəmiyyətin billur bir avizəsi kimidir. Tarix səhifələrini vərəqlədiyimiz zaman görürük ki, millətlər xanımlarla abad olmuş və ya onların əliylə bərbad olmuşlar. Əgər qadınlara xoşbəxtlik üçün küçələr göstərilirsə, onların həyat yolları şüşə qırıqları ilə dolar.

Qadınlar xoşbəxtlik və səadəti harada axtamalıdırlar?

Qadının səadəti ləyaqətini qoruyaraq yaşamasında və ailəsini qorumasındadır. "Cənnət anaların əyaqları altındadır." (Suyuti, Camius-sağır, 1, 125) hədisi-şərifi layiqli analar üçün Peyğəmbərimizin nə böyük bir müjdəsidir.

Fəzilətli ana, ilahi qüdrətin genişlədilmiş rəhmət qucağı, ailədə səadət qaynağı, zövq və səfa işığı, ailə üzvlərinin şəfqət mənbəyidir. Rəbbimizin "ər-Rəhman" və "ər-Rəhim" isimlərinin dünyadakı müstəsna və əsas bir təcəllagahıdır.

Bizi əvvəlcə bir müddət bətnində, sonra qollarında və ölüncəyə qədər də qəlblərində gəzdirən analarımıza göstəriləcək sevgi və hörmətə layiq olan ikinci bir varlıq yaradılmamışdır. Evin nizamı və övlad tərbiyəsini çiyinlərində daşıyan analar həqiqətən sonsuz sevgiyə, dərin məhəbbətə və ömürlük bir təşəkkürə layiqdirlər.

Bir ana ruhunda toplanan sonsuz şəfqətin hüdudlarını təyin edə bilən bir ölçü varmı? Özü yeməmiş yedirmiş, geyməmiş geydirmiş, yatmamış yatırmış... Həyatın fırtınalarında üzərimizə bir toz qonmasın deyə bütün varlığını fəda edən ata və anaların haqlarını ödəyə bilmək mümkündürmü?

Mövlana həzrətləri belə buyurur:

"-Ana haqqına riayət et! Onu başında tac et! Çünki analar doğum sancısı çekməsəydilər uşaqlar da dünyaya gəlməyə yol tapa bilməzdi."

Böyük vəli və İslam hüquqçusu olan İmam Əzəm həzrətləri zülmə alət olmamaq üçün Bağdad qazılığını rədd etmişdi. Xəlifə Əbu Cəfər Mənsur onu cəzalandırmaq üçün həbs etdirmiş və dəyənək cəzası verdirmişdi. Hər gün vurma sayını da artırırdı. İmam Əzəm həzrətləri isə dəyənəklər altında çekdiyi iztirabdan daha çox: "Bu halımı anam eşidərsə nə edər?" təlaşı ilə dostlarına xəbər göndərdi:

"-Aman, bu halımı sevimli anam eşitmə-

Fəzilətli ana, ilahi qüdrətin genişlədilmiş rəhmət qucağı, ailədə səadət qaynağı, zövq və səfa işığı, ailə üzvlərinin şəfqət mənbəyidir. Rəbbimizin "ər-Rəhman" və "ər-Rəhim" isimlərinin dünyadakı müstəsna və əsas bir təcəllagahıdır.

sin. O mənim acı çekməyimə dözə bilməz, pərişan olar!.. Mən də onun üzülməsinə dözə bilmərəm!”- deyərək, ana məhəbbətinin ən gözəl nümunəsini sərgiləmişdir. Ana məhəbbəti sanki ona dəyənək acısını hiss etdirməmişdi.

Bəhauddin Nəqşibənd həzrətləri də:

“-Mənim qəbrimi ziyarətə gələnlər əvvəlcə anamın qəbrini ziyarət etsinlər!”- buyuraraq, ana sevgisinin sonsuzluğuna bariz bir misal olmuşdur.

Əbdürrəhman Molla Cami isə:

“-Mən anamı necə sevməyim ki, o, məni bir müddət cismində, bir müddət qollarımda, ömür boyu da qəlbində gəzdirməkdədir!..”

Nəslin yetişdirilməsində anaların əhəmiyyəti

Bir milləti necə bir gələcəyin gözlədiyini görmək kəramət deyil. Bunun üçün gənclərə baxmaq kifayətdir. Hər dövrün gəncliyi öz xarakterinə uyğun bir şəkildə enerjisini xərcləyə biləcəyi fərqli bir həyəcan aləmində yaşayar. Bu yaşayış da bütün bir millətin sanki nəbzi olur. Yəni hər millət gənclərinin hiss və fikir dünyasına görə şəkillənir. Əgər bir millətdə gənclər güclərini xeyir, mənəviyyat və fəzilət yolunda sərf edirlərsə o millətin gələcəyi mükəmməldir. Əksinə gənclər güc və qüvvətlərini nəfsaniyyətə, yəni kobudluğa əsir və ram edərlərsə aqibət acınacaqlıdır. Elə isə, millətləri öz çiyinlərində şərəflə gələcəyə aparacaq yüksək mənəviyyatlı gəncləri yetişdirməkdə ən böyük vəzifə anaların üzərinə düşməkdədir. Çünki nəsli yetişdirənlər analardır. Bütün övliya və fatehlər ilk feyzlərini fəzilətli bir anadan almışdırlar.

Bunun ən gözəl nümunələri əshabi-kiramın xanımlarıdır. Onlar övladlarına canları və malları ilə fədakarlıq etməyi öyrətmişdirlər. Övladlarının könüllərini Rəsulullahın məhəbbətiylədol durmuşdurlar. Beləliklə meydana gətirdikləri parlaq və xoşbəxt dövrlər ilə bir daha sübut etmişdirlər ki, güclü cəmiyyətlər güclü ailələrdən meydana gəlir. Güclü ailələr də daha çox mənəvi tərbiyə görmüş, yəni nəfis əngəlini aşmış, fəzilətli xanımların əsəridir.

Bir gözəl, hikmətli sözdə belə buyurulur:

“Dünya üç şeylə cənnət olur:

-Əldən, dildən və könüldən infaqla;

-Allahın bəndələrini eyibləməyib əfv etməklə;

-Zalımın zülmünə, zülüm cavab verməyib hidayətinə səbəb olmaqla.”

Bir milləti necə bir gələcəyin gözlədiyini görmək kəramət deyil. Bunun üçün gənclərə baxmaq kifayətdir. Hər dövrün gəncliyi öz xarakterinə uyğun bir şəkildə enerjisini xərcləyə biləcəyi fərqli bir həyəcan aləmində yaşayar. Bu yaşayış da bütün bir millətin sanki nəbzi olur.

Digər bir hikmətli sözdə insanlar içərisində özünü tanıyanlar üç sinifdir deyilmiş və belə buyurulmuşdur:

"-Heç kimsəni incitməyənlər;

-Ad və sifətlərini söyləməkdən həya edən təvazö sahibləri;

-İlahi əmanət və məxluqata Haqq nəzəriylə baxanlar."

Gül və çiçək mənzərələri necə ki, ən qəddar və tərs insanı belə təbəssüm etdirirsə, insanlara nümunə və rəhbər olacaq şəxsin könlü də o şəkildə olmalıdır. Bütün məxluqata sevinc və səadət verməlidir. Ən qatı və səfil bir qəlb belə onun qarşısında yumuşalmalı, oyanmalıdır.

Qızlarımız iki Fatimənin ruh iqliminə bürünməlidirlər.

Bunlardan biri İnsan surəsinin 8-11 -ci ayələrində fəziləti Allah təala tərəfindən bildirilən Fatimədir.

Həzrət Həsən və həzrət Hüseyn uşaq ikən bir xəstəliyə düçar oldular. Həzrət Əli (r.anh) və həzrət Fatimə (r.anhə) üç gün oruc tutmağı nəzir etdilər. Birinci gün iftarlarını açacaqları vaxt bir yoxsul gəldi:

"-Allah rizası üçün yeməyə bir şeylər verin!.." -dedi.

Süfrələrindəki yeməklərini verdilər. Su ilə iftar ediərək ikinci gün oruca niyyət etdilər. İkinci gün iftar vaxtında bir yetim qapını döydü və:

"-Allah rizası üçün bir loxma!.." -dedi. Bu dəfə də süfrələrindəki yeyəcəklərini verdilər. Özləri isə yenə su ilə iftar edərək ertəsi günkü oruca niyyət etdilər.

Üçüncü gün eyni saatlarda bir kölə gələrək bir az yeyecək istədi. Yenə də süfrələrindəkini verdilər və bu dəfə də su ilə iftar etdilər. Bu hadisədən sonra İnsan surəsindəki aşağıdakı ayələr nazil oldu:

"Onlar öz iştahaları çəkdiyi (özləri yemək istədikləri) halda (və ya: Allah rizasını qazanmaq uğrunda) yeməyi yoxsula, yetimə və əsirə yedirərlər.

(Və sonra da yedirtdikləri kimsələrə belə deyərlər:) «Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən (bu ehsan müqabilində) nə bir mükafat, nə də bir təşəkkür istəyirik.

Həqiqətən, biz Rəbbimizdən, çox sərt (müdhiş), çətin gündən (üzlərin dəhşətdən eybəcər hala düşəcəyi, çöhrələrin tutulub qaralacağı qiyamət günündən) qorxuruq!»

Niyyətlərimiz Allah rizası üçün olmalıdır ki, etmiş olduğumuz əməllər, Allah dərgahına çata bilsin. Allah Təala rizasından kənar edilən ibadətləri bir əski parçası kimi qulunun üzünə vurar.

Allah da onları o günün şərindən qoruyacaq, onlara gözəllik və sevinc bəxş edəcəkdir (üzlərinə təravət verəcək, qəlblərini sevindirəcəkdir).

Və onları etdikləri səbr müqabilində Cənnətlə və (geyəcəkləri) ipəklə mükafatlandıracaqdır." *(əl-İnsan, 8-12) (Vahidi, s.470; Zəmahşəri, VI, 191-192; Razi, XXX, 244)*

Bu ayələrdə üç xüsus diqqəti cəlb edir:

Birincisi, Allahın məxluqatına mərhəmət, Allahın nəzəriylə Onun məxluqatına baxa bilmək; yoxsulun, yetimin və əsirin könlünü ala bilmək. Bu xüsusda Əbu Bəkr Vərraq həzrətləri belə buyurur:

"-İnfaq etməyən cənnəti ümid etməsin! Kasıbı sevməyən də Peyğəmbərimizi sevdiyini iddia etməsin. İkisi də yalançıdır!"

İkincisi, infaqı Allah rizası üçün edə bilməkdir. Bu baxımdan həzrət Əli və həzrət Fatimə:

"-Biz bir qarşılıq gözləmirik, bir təşəkkür də istəmirik. Etdiyimiz işləri yalnız Allah rizası üçün edirik." -deyirdilər. Biz də etdiyimiz əməllərimizi sırf Allah rizası üçün etməliyik, bəndələrdən bir qarşılıq gözləməməliyik.

Üçüncüsü isə, bu kərəmli və nümunə insanlar:

"-Biz qiyamət günündən, o sərt və bəlalı gündən qorxuruq." -deyirlər. Bu da bir mömin qəlbinin Allah qorxusu ilə dolu olmasının halıdır.

Allah təala da onların bir ixlas və xidmətlərinin qarşılığı olaraq: "Onları, o bəlalı gündən qoruyarıq." -buyurmuşdur.

Bu Fatmanın könül dünyasını əks etdirən ikinci misal isə belədir:

Sevimli Peyğəmbərimiz Kəbənin Rükni-Yəmani adlanan yerində namaz qılarkən Əbu Cəhl gəldi. Onu yalnız görərək sevindi və tez bir adam göndərib dəvənin yenicə çıxarılmış içalatını gətirtdi. Sevimli Peyğəmbərimiz səcdədə ikən 70-80 kq. ağırlığındakı o dəvə içalatını Onun üstünə atdı. Peyğəmbərimizin hələ o zamanlar müsəlman olmamış əmisi Abbas da orada idi. Müşriklərin qəzəbindən qorxduğu üçün səsini çıxartmadı.

O vaxt oradan keçən və təxminən 9-10 yaşlarında olan Fatimə qaçaraq gəldi, Peyğəmbərimizin üzərindən o pislikləri

"İnsanların ən cahili axirətini başqasının dünyası üçün satandır. Yəni Allah rizası yerinə qul rizasına meyl edənlərdir."

Necə ki, bir heyvan qabiliyyətlərilə dəyər qazanırsa, insan da ağlını və qəlbini doğru işlətməsiylə dəyər qazanır.

təmizləməyə başladı. Bu vaxt, eyni zamanda gözlərindən yaşlar axırdı.

Sevimli Peyğəmbərimiz -səlləlahu əleyhi və səlləm-:

"-Ağlama qızım!.." -deyərək ona təsəlli verirdi. (*Buxari, Salat 109, Cihad 98, Cizyə 21; Müslim, Cihad 107)*

Qohumluq əlaqələrinin belə aciz qaldığı bir qorxu qarşısında həzrət Fatimə mərd və qorxmazdı. O, Allah və Rəsulunu hər şeydən üstün tutar və hər şeydən çox sevərdi. Buna görə də həzrət Fatiməyə "Ümmü Əbiha - Atasının anası" adı verilmişdi.

İkinci Fatiməyə gəldikdə isə, o, Ömər bin Xəttab həzrət Peyğəmbərin canına qəsd edərək böyük bir cinayət işləməyə gedərkən, ona mane olub, hidayətə sövq edən Fatimədır. Belə ki, o gün bu Fatimə elə bir qəlblə Quran oxumuşdur ki, Ömər kimi sərt təbiətli, qatı qəlbli, cəhalət dövrünün insanı əriyib yox olmuş, yerinə könlü mərhəmətlə dolu, gözü yaşlı, Haqq qarşısında əyilən həzrət Ömər (r.a) gəlmişdi.

Dolayısı ilə, qızlarımızın bu iki Fatiməni və bu kimi digər xanımları nümunə almaları çox mühümdür. Hər bir qızımız onlar kimi başqalarını düşünən və comərd olmalı, əməlini Allah rizası üçün yerinə yetirməli, Qurani-Kərimi bir qəlbi hiss və həyəcanla oxumalıdır ki, arzu edilən ülvi nəsiblər təcəlla etsin, ilahi feyiz və təsirlər könüllərimizi doldursun.

Bu mənada həzrət Aişə (r.anha)-nı da xatırlamaq yerinə düşər. Çünki o, Peyğəmbərimizin xanımları içərisində ən üstün zəkaya sahibdi. Əshabi-Kiram arasındakı yeddi müctəhiddən biri idi. Sevimli Peyğəmbərimiz, onun haqqında:

"-Dininizin üçdə birini Aişənin evindən öyrənin!" -buyurmuşdur. *(Deyləmi, II, 165/2828)*

Beləliklə hər müsəlman xanımın həzrət Aişə anamızın Peyğəmbərimiz tərəfindən mədh edilmiş zəka və fərasətindən, Allah təalanın şəhadətinə nail olmuş iffətindən pay almağa çalışması lazımdır.

Niyazımız odur ki: Rəbbimiz, bütün qızlarımıza Fatimə (r.anha)-nın qəlbi həyatından, həzrət Aişə anamızın zəka, fərasət və iffətindən və xüsusən də həzrət Xədicə anamızın sədaqət və fədakarlığından pay almağı nəsib etsin.

Amin!..

Allah təala qadını hiss baxımından kişiyə görə daha zəngin yaratmışdır. Bu duyğu və hiss zənginliyi Allahın qadına verdiyi əsas bir vəzifənin gərəyidir. Bu vəzifə isə, nəslin qorunması və tərbiyəsidir. Bu ilahi nizamdan kənara çıxılarsa qadının yaradılışına xəyanət edilmiş olar.

Hatice ŞAHİN

XƏZAN MÖVSÜMÜ

Balaca qız həyata hələ yeni qədəm basmışdı. Ətrafında olanlardan xəbərsiz olaraq, quş səslərinin musiqi sədaları altında havada uçan kəpənəklərlə rəqs etməkdədir. Həyat onun üçün bir oyundan ibarətdir. Xoşbəxtlik və səadəti əlində oynatdığı kiçik bir gəlincikdə tapmışdır. Səadətə çatdıgı üçün sevdiklərinə sevinc qaynağıdır. Təbəssümünü qarşılıqsız olaraq hamıya təqdim edirdi. Onun yeganə sıxıntısı kiçik gəlinciyinin, yaxud da, şirniyyatının əlindən alınmasıdır. *"Həyatda ən böyük istəyin nədir?"* -deyə, soruşan olsa, "bir otaq dolusu şirniyyatım olmasıdır," cavabı olacaqdır. Yaxud "Atanın sənə nə almasını istəyirsən?" deyən olsa, "dondurma alsa bəsimdir," deyə cavab verər. O saf qəlbində ehtirasdan heç bir əlamət yoxdur. Dünyaya aid problemler, terror, inflyasiya, moda dərdi kimi sıxıntılar bu uşağın həyatında yer almır. Heç vaxt böyüyüb, onunla üzbəüz oturan yaşlı nənə kimi olacağını ağlından belə keçirməz. Bəlkə də, o hala düşməyi özünə heç cür yaraşdırmaz. Özünə məxsus suallar soruşar: "Görəsən, bu nənə həmişə belə olub? Heç uşaq olub mənim kimi gəlinciyi ilə oynadımı?" və ya "Bir şirniyyat üçün heç ağlayıb görəsən?" Balaca qız bu məsum fikirlərə daldığı arada onu uzun müddət izləyən yaşlı qadın ağır addımlarla ona tərəf yaxınlaşır və qızın ipək saçlarına toxunmaq istəyir. Qız birdən ona tərəf uzanan qırışmış əllərdən və alnındakı illərin açdığıı izlərdən diksinər. Yaşlı qadın bu balaca qızın ondan çəkindiyini görərək, üzündə acı bir təbəssüm, qızın yanında oturur. Elə bil yanında həmyaşıdı varmış kimi dili açılar və belə bir söhbətə başlayar: "Ey əli, üzü pambıq kimi yumşaq, gül kimi gözəl olan! Bir vaxtlar mən də sənin kimi uşaq idim. Hamının sevimlisi idim. Ata-anam gülüşlərimlə sevinərdilər. Sonra böyüdüm və gözəllikdə

hamı məni nümunə göstərirdi. Hamı mənə heyran qalır, həmyaşıdlarım qısqanırdılar. Elə bilirdim ki, bu halım heç keçməyəcək. Yaşlıları gördüyümdə "mən heç belə olaram?" deyərək, yaşlılığı özümə yaraşdırmazdım. Amma gəl gör ki, yaşlılıq gəlib çatdı. Mən də bu dəvətsiz gələn qonağı qarşılamaq məcburiyyətində qaldım. İnsanların heyran qaldığı gül üzüm soldu, xəzana döndü. Pambıq kimi yumşaq olan əllərim qurumuş yarpağa döndü. Söyüd ağacı kimi əyilən boyum daha çox əyilərək torpağa qarışdı. Gözəlliklərim bir-bir şam kimi söndü. Sən baharsan, mən isə baharı olmayacaq qış kimiyəm. Sənin ətrafında indi insanlar var, mən isə təklikdəyəm. Sənin günlərin qısa, illərin uzundur, mənim isə günlərim uzun, illərim isə qısadır. Gənclik tez keçir demişdilər, amma yaşlılıq da tez gəlib-keçirmiş. Hər gün torpağa baxan üzüm artıq torpağın altına girmək istəyir. Hər an məni gəlib aparacaq qonağı gözləyirəm, təəssüflər olsun ki, uzun səfərə yetərincə hazırlana bilmədim. Hazırlıqsız yola çıxan sıxıntıya düşər. İndi oturub əyləncə ilə keçən ömrümə ağlayıram. Amma nə fayda?! Gəncliyimdə bilik ağacı əkmədiyim üçün indi sığınacaq kölgə tapmıram.

İndi isə bütün dünya nemətlərindən istifadə etmiş bir varlıq olaraq, əlimdəki əsa ilə əbədiyyət aləminə yola çıxmışam. Mən də sənin kimi dünya problemlerindən, terordan, infilyasiyadan, moda dərdi kimi dərdlərdən uzağam".

Balaca qız, elə bil ki, bu yaşlı nənənin söhbətindən ibrət almış kimi əlindən tutur və xoş bir təbəssümlə onun yaralı qəlbinə son bir ümid işığı səpir.

Axşam vaxtı bu balaca qız evə gələndə qonaqlardan bu sözləri eşitdi: Osman Yüksəl Sərdənkeçdi fırtına kimi keçən ömründən sonra, yaşlı çağında (titrəmə) xəstəliyinə tutulanda bu ibrətli və mənalı sözləri demişdir:

"Bir zamanlar ölkəni bir-birinə qarışdırırıdım, indi isə bir çayı belə qarışdıra bilmirəm.

Ey salik, aynadakı son naxışa bax!

Bir gözəlin yaşlılığındakı çirkinliyini və bir binanın xaraba halına gələcəyini düşün və AYNADAKI YALANA aldanma !" (Hz. Mövlana).

Sən baharsan, mən isə baharı olmayan qış kimiyəm. Sənin ətrafında indi insanlar var, mən isə təklikdəyəm. Sənin günlərin qısa, illərin uzundur, mənim isə günlərim uzun, illərim isə qısadır.

Qətibə VAQİFQIZI
gatibevagifkizi@yahoo.com

İLK QIZ MƏKTƏBİ

XIX əsrdə dünyanın hər yerində sosial və siyasi həyatda, münasibətlərdə baş verən ictimai, mədəni dəyişikliklər heç şübhəsiz, Azərbaycandan da yan keçməmişdir. Şərq və Qərb dünyasının kəsişdiyi, iki fərqli dünyanın mədəni özəlliklərini, zənginliklərini özündə birləşdirən bu qədim məmləkətdə də XIX əsrin əvvəllərindən başlayaraq maarifçilik, təhsil və tərbiyəyə xüsusi maraq oyanmışdı. 1850-ci illərdə isə çar hökuməti tabeçiliyində olan müsəlman dövlətlərdə də müsəlman uşaqları üçün müxtəlif tipli ibtidai, realnı məktəblər, gimnaziyalar açılması haqqında qərarlar verir. Neft sənayesi inkişaf etdikcə, iqtisadi durum yüksəldikcə, şəhər həyatı canlandıqca təhsilə diqqət daha da artırdı. III Aleksandrın zamanında H.Z.Tağıyevin müsəlman qızlar üçün Bakıda məktəb açmaq üçün yazdığı icazənaməyə isə rədd cavabı alır. II Nikolay taxta çıxandan sonra Tağıyev yenidən bu iş üçün çardan icazə almaq istəyir. O, bir senatorun vasitəsilə çarın xanımı Aleksandra Fyodorovnaya çox bahalı bir hədiyyə göndərir və Bakıda qız məktəbi açmağa izn istəyir. 1896-cı ildə onun istəyinə müsbət cavab verilir. H.Z.Tağıyev İslam dini adından danışan, lakin İslamdan xəbərsiz olan bir çox qaraguruhçunun işə mane olacağını bilərək, Məkkə, Mədinə, Kərbəla, Xorasan, Qahirə, İstanbul və Tehrana nümayəndələr göndərir və oradakı mötəbər, rəsmi din xadimlərindən, müctəhidlərdən məktəb açılmasına razılıq verilməsi haqqında möhür və imzalı icazənamələr alır. Müsəlman Qız Məktəbi köhnə Nikolayevski, indiki İstiqlaliyyət küçəsində, bu gün Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutunun yerləşdiyi bina idi. 1898-1900-cü illərdə məktəb binası dövrünün mahir və məşhur memarı İ.V.Qoslavskinin (1865-1904) layihəsi əsasında tikilir. Bakı şəhərinin mərkəzi inzibati-ictimai magistralında aktiv mövqe tutan bina həcmli-məkan və kompozisiya sistemi ilə fərqlənir. Məktəbin binası Azərbaycan memarlıq məktəbinin milli-romantik üslubunda tikilmişdir. Əsas fasaddakı divar bir cərgə ağ, bir cərgə isə

qızılı daşdan hörülmüşdür. Binanın siması yerli memarlıq incəsənət ənənələri və müasir stilistika istiqamətinin xüsusiyyətləri əsasında formalaşmışdır. P-oxşar planlı məktəb cənub tərəfdə yerləşən qala divarı hesabına qapalı həyətə malik idi. Bu şərq şəhərinin iqlim və məişət şəraitinə uyğun idi. Şəbəkə elementləri və detalları ilə bəzədilmiş eyvanlar xüsusi memarlıq ifadə forması təşkil edir.

Açılanda 4 illik, 2 il sonra 5 illik, sonra 6 illik olan bu məktəbi Hacı banka 100.000 manat 5% -li qızıl pul verib seminariyaya çevirtdirmişdi. Ümumiyyətlə, tarixi sənədlərdə qeyd olunur ki, məktəb binası 183.533 manata tikilmiş, avadanlığa 29.000 əlavə pul xərclənmiş, bankda da 125.000 manat toxunulmaz kapital qoyulmuşdur ki, bu da məktəbin əlavə məsrəflərini təmin etmək üçün nəzərdə tutulmuşdu. Seminariya olandan sonra bu xərc 225.000 manat olmuşdur.

"Kişi təhsil alarsa, o, sadəcə, təhsilli, dünyagörüşlü insan olacaq. Təhsilli qadın isə savadlı insan olmaqla yanaşı, elmli, dünyagörüşlü anadır. Qadınlar, analar nə qədər təhsilli olsalar, bu, bir o qədər elmli, savadlı gəncliyin yetişməsi deməkdir".

Məktəbdə dərslər 1901-ci il sentyabrın 7-də başlanmışdı. Məktəbə 58 qız qəbul olunmuşdu ki, bunlardan 35-i kasıb ailələrin övladları idi. Məktəb pansion və qaoali tipli idi, qızlar həftədə bir dəfə, cümə günləri səhər 10-dan axşam 17-yə qədər evlərinə getməyə icazə verilirdi. Geyimləri və bütün əlavə xərcləri məktəb özü ödəyirdi. Məktəbin ilk müdirəsi maarifçilik hərəkatının nümayəndələrindən olan H.Zərdabinin xanımı Hənifə Məlikova idi. Bakıda, İçərişəhərdə Axund Abuturab ağa iki qızını bu məktəbə yazdırdığına görə onu namaz üstə öldürmüşlər. Belə bir şəraitdə Hənifə xanımın heç nədən, heç kimdən qorxmadan qız məktəbində müdirə vəzifəsini öz üzərinə götürməyi, burada oxuyan qızlara mənəvi ana olmağı böyük fədakarlıq idi.

Azərbaycan mədəni həyatında böyük bayrama çevrilən Şərqdə ilk müsəlman-qız məktəbinin açılması bir çox azəri qızının elm, savad, bilik almasına şərait yaratdı, onların dünyagörüşlərinin formalaşmasında xüsusi rol oynadı. Doğrudan da müsəlman qızlar məktəbi sözün əsl mənasında istedadlı qadınların beşiyinə çevrildi. Hacı Zeynalabdin Tağıyevdən soruşurlar ki, niyə oğlanlar üçün deyil, məhz qadınlar üçün məktəb açdırmaq qərarına gəldiniz? O zaman müdrik milyonçu cavab verir ki, *"Kişi təhsil alarsa, o, sadəcə, təhsilli, dünyagörüşlü insan olacaq. Təhsilli qadın isə savadlı insan olmaqla yanaşı, elmli, dünyagörüşlü anadır. Qadınlar, analar nə qədər təhsilli olsalar, bu, bir o qədər elmli, savadlı gəncliyin yetişməsi deməkdir".* Bu məktəbi bitirən bir çox azəri qızı gələcəkdə pedaqoji və elm aləminin ən məşhur insanlarına çevrildilər, ictimai-siyasi həyatın ən aktiv nümayəndələri oldular.

Dr.Qiymət MƏHƏRRƏMLİ

ANA BÖYÜKLÜYÜ

Doğulub boya-başa çatdığım Şəki rayonunun əksər kəndlərində olduğu kimi, Azərbaycanımızın istənilən bölgələrində saysız-hesabsız ana və bacılarımız, ata və qardaşlarımız, körpə balalarımız gözlərini Rusiyanın, digər xarici ölkələrin onların əzizlərini aparıb geri qaytarmaq bilməyən yollarına dikmişlər. Bu acı həqiqəti hər birimiz yaxşı anlasaq da, çox zaman yaxınlarımızı öz əlimizlə qürbətə yollamaq məcburiyyətində qalırıq. Səbəbi isə hər birimizə yaxşı məlumdur: iqtisadi, sosial çətinliklər, həlli müşkülə dönmüş problemlər!...Lakin doğrudanmı, bu yolla biz problemlərin həllinə nail oluruq? Heyflər olsun ki, çox vaxt arzularımız daşa çırpılır, ümidlərimiz çilik-çilik olur. Gəlin unutmayaq:

Bu dünyanı kim tutub ki əzəldən,
İnsan ömrü seçilirmi xəzəldən?!
Gedən gəlmir bu dünyaya təzədən,
Bilinməyir nə sonu, nə siftəsi...

Qəm üstündə köklənibdi ömrümüz,
Min dərd ilə yüklənibdi ömrümüz
Bir sədaya şəklənibdi ömrümüz
Bu gün- sabah qoyulacaq nöqtəsi...

Eh, yenidən nələri xatırladım, bir Allah bilir. Azərbaycan kəndində indi çətin elə bir ailə tapılar ki, Rusiyanın hansısa bir şəhərində yaşayıb işləyən bir üzvü olmasın. Belə ailə varsa da, ya oğlu yoxdur, ya da öz sözləri ilə desək, *"fərsiz"*dir. Yəni, sadəcə olaraq *"Rusyətin yolunu bilmir"*, vəssalam. Daha demirlər ki, Rusiyada özünə pisdən-yaxşıdan güzəran qurmuş, yaxud haçansa kənd yadına düşəndə güzarını burdan salan həmkəndlilərin ata-anaları, əzizləri məhz bu "fərsizlər"in çiynində son mənzilə yola salınır.

Yaxşı yadımdadır: biz uşaq olanda. Kənddə bir ya iki adam Rusiya yoluna yollanmışdı. Biri də vardı,

evlənib getmişdi, qayıdanda gördü ki, bir oğlu olub. Təzədən qayıtdı, getdi qürbət diyara. İki-üç ildən sonra yüz yol edilən xahiş-minnət nəticəsində geri döndü və yenidən daha bir oğlu olduğunu, onun da az qala *"yekə kişiyə"* döndüyünü görüb təəccübləndi. Hətta adam o dərəcədə heyrətləndi ki, son dəfə özünün kənddə neçə il, neçə gün qabaq olduğunu xatırlaya bilmədi. Və qeyrət damarı necə tutdusa, bu illər ərzində bərkimiş, codlaşmış yumruğunu düyünləyib düşdü yazıq gəlinin üstünə. Necə deyərlər, *"Nə yemisən?-turşulu aş!"* Oğullarının *"Uşaq kimdəndir?"* nərəsindən hövllənən yazıq ata-ana ha and-aman eləsələr də ki, *" Vallah- billah, bu gəlin mələk kimi pakdır, təmizdir, uşaq da doğmaca nəvəmizdir",* qeyrətli ər dinə-imana gəlmək bilmədi ki, bilmədi. Axırda anasının əzişdirilməsinin səbəbkarı olan tifil ağlaya-ağlaya gəlib gəlinin gömgöy göyərmiş üzündən öpərək: *"Ana, bu dayı kimdir? O, səni niyə döyür?"*- deyəndə, deyəsən, namus dağarcığı olan ərin havası bir az alındı. Həmin gecəni bir təhər səhər edən kişi, o başdan durub üz tutdu ona *"ana qucağını geniş açan Rusiya"* ya...

Bu hadisə çoxdanın söhbətidir. Bir neçə il qabaq eşitdim ki, o vaxtdan bəri Rusiyada yaşayan həmin kişinin atasının üzünü bir daha görməmiş böyük oğlu Qarabağımız uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Bilmirəm övlad sevgisinin nə olduğunu bilməyən həmin ata bu kədərli, faciəli hadisədən xəbər tutub, ya yox, bir onu bilirəm ki, yaşadığı yerdə ağır, sağalmaz xəstəliyə düçar olan kişini rus millətindən olan *"sevimli arvadı"* və ondan olan övladları evdən bayıra atıblar. Həmkəndliləri vasitəsilə qocalıb əldən düşmüş ata-anasına xəbər göndərən *"oğul"* acizanə dərəcədə xahiş edib ki, onu nə yolla olursa-olsun, vətənə gətirsinlər. Qonum-qonşunun tənəsinə baxmayaraq, əldən-dildən düşmüş qocalar övlad sevgisi qarşısında aciz qalırlar. Borc-xərc edib, yalvar-yaxarla kənddən bir nəfəri yollayırlar oğullaının dalınca. 18-20 illik Rusiya həyatından sonra ağır xəstə halında kəndə gətirilən ağ saçlı oğula ata-anasını görmək nəsib olmur. Artıq 2-3 gün idi ki, qocalar bir-birinin ardınca dünyalarını dəyişmişdilər. Dünyanın bütün dərdlərini görmüş, taleyin ən ağır zərbələrini almış gəlin-ananın isə bu anda hansı qərar qəbul edəcəyi hamını düşündürürdü.

Əziz oxucu, mən yazmasam da, deməsəm də, çox güman ki, sən özün yəqin etdin ki, gəlin hansı yolu tutdu. O, bütün türk analarının, Azərbaycan qadınlarının nümayiş etdirəcəyi böyüklüyünü özünə rəva gördü.

Gəlin Böyük Allahın buyurduğu kimi hərəkət etdi. Allah rizası üçün onu atmış, tərk etmiş, unutmuş, başına olmazın müsibətlər açmış, nə vaxtsa *"ər"* deyib sığındığı kişini bağışladı... Bu hərəkətinə görə, çoxları ondan üz döndərdi, lakin gəlin: *"Bağışlamaq böyüklükdür."*,- deyib Allaha üz tutdu, özünə səbir dilədi. 3 ildən bəri xəstə yatan *"yad kişi"* yə qulluq etdi. Dünyasını dəyişən zamansa Böyük Yaradandan onun günahlarının bağışlanmasını dilədi. Ata-anasının, dünyadan nakam köçmüş madar oğlunun yanında basdırdı onu. Baştacı da qoydurdu. Hər şeyi insanlıq naminə etdi gəlin.

Xanım HƏMZƏYEVA

MALI BİR İBADƏT OLAN QURBAN

Malı bir ibadət olan qurban, Allahın ehsan buyurduğu varlığa bir təşəkkürdür. Kəsilən qurbanlar Allah Təalaya mənən yaxınlıq qazanmağımıza vəsilə olur. İnsan qurban kəsməklə Allaha və onun buyurduqlarına olan bağlılığını, Allahın razılığını qazanmaq üçün hər fədakarlığa hazır olduğunu sübut etmiş olur.

Malı bir ibadət olan qurban, Allahın ehsan buyurduğu varlığa bir təşəkkürdür. Kəsilən qurbanlar Allah Təalaya mənən yaxınlıq qazanmağımıza vəsilə olur. İnsan qurban kəsməklə Allaha və onun buyurduqlarına olan bağlılığını, Allahın razılığını qazanmaq üçün hər fədakarlığa hazır olduğunu sübut etmiş olur. Bu səbəbdən də, bütün ibadətlərdə olduğu kimi qurbanda da ixlas əsasdır. Yəni, etdiyimiz ibadətlərin Allah qatında qəbul olmasındakı təməl vasitə, bu ibadətlərin göstərişdən uzaq olaraq yalnız Allah rizası üçün etmə səyidir. Bu niyyət olmadan edilən heç bir ibadətin Allah qatında bir dəyəri yoxdur.

Bəzən insan yaxşı niyyəti səbəbiylə etmədiyi bir ibadət və yaxşılığın, onu etmiş kimi savabına nail olur. Çünki Allah Təalaya yüksələn yaxşı niyyətimizdir. Həcc surəsi, 37-ci ayədə belə buyurulmuşdur: **"Onların nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Allaha çatacaq olan yalnız sizin təqvanızdır (səmimi-qəlbdən etdiyiniz ibadətdir). Allah sizi doğru yola yönəltdiyi (sizə həccin əməllərini göstərdiyi) üçün Onu (layiqincə) uca tutasınız deyə, bunları sizə belə ram etdi. (Ey Muhəmməd!) Ehsan edənlərə (Cənnətlə) müjdə ver!"**

İslam sosial yardımlaşmağa çox böyük əhəmiyyət vermişdir. Qurban da sosial yardımlaşmanın bir nümunəsidir.

Maddi vəziyyəti yaxşı olan müsəlmanların ilin bəlli günlərində kəsdikləri qurbanlardan yoxsullar və kimsəsizlər də yararlanmış olurlar. Qurban qohum və qonşular arasındakı sevgi və qardaşlıq bağlarının qüvvətlənməsinə yol açır. Çünki kəsilən heyvanın əti üç hissəyə bölünür: biri qurban kəsməyə imkanı olmayan kasıblara sədəqə olaraq, bir qismi də qohum-qonşuya verilir, bir qismi öz ailəsi üçün saxlanılır.

Bundan başqa qurbanda heyvandarlığa təşviq var. Hər il Qurban bayramında kəsilən heyvanların təmin işi bir çox insanların maddi ehtiyacına yardım edir.

Bayrama gəlincə bayramların cəmiyyətimizdə üstün yeri və dəyəri vardır. Bayram günləri bütün insanların sevincli anları olan mübarək günlərdir. Həyatın bitmək-tükənmək bilməyən sıxıntıları içində əzilən və yorulan insanları dincləşdirir, işləmə əzmi və cəsarətlərini artırır. Bu günlərdə qohum-qonşu və tanışlarımızla olan əlaqələrimiz qüvvətlənir, birlik və qardaşlığımız güclənir.

Bayram günlərində başda ana və ata

"Onların nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Allaha çatacaq olan yalnız sizin təqvanızdır (səmimi-qəlbdən etdiyiniz ibadətdir). Allah sizi doğru yola yönəltdiyi (sizə həccin əməllərini göstərdiyi) üçün Onu (layiqincə) uca tutasınız deyə, bunları sizə belə ram etdi. (Ey Muhəmməd!) Ehsan edənlərə (Cənnətlə) müjdə ver!" (Əl-Həcc, 37)

olmaqla yanaşı böyükləri ziyarət etmək və xeyir-dualarını almalıyıq. Qohum-qonşularla təbrikləşmək, dostlarımıza gedərək könüllərini alınır, xəstəxanalarda və evlərdə yatan xəstələri ziyarət edilir, ətrafımızdakı yoxsullara və kimsəsiz uşaqlara yardım olunur və bayram sevinci yaşamalarına şərait yaradılır. Bizdən xeyir-dua gözləyən ölülərin məzarlarına gedilərək ruhları şad edilir. Küsülü olanlar barışır və barışdırılır.

Bütün bunlar cəmiyyətin birlik və bərabərliyinin gücləndirilməsinə və cəmiyyəti rahatsız edən ayrılıq və düşmənliklərin aradan qaldırılmasına təsir edir.

Bu düşüncələrlə bütün müsəlmanların Qurban bayramını təbrik edir, bu bayramın xalqımız üçün birlik və qardaşlığa, rifah və xoşbəxtliyə, bütün müsəlmanlar və insanlıq aləmi üçün barışa vəsilə olmasını uca Allahdan diləyirik.

Dr. Aynur MƏMMƏDZADƏ

Hamiləlikdə sağlam qidalanma

Başından sonunadək sağlam bir hamiləlik keçirmənin əsas qanunu davamlı həkim müayinələri olduğu kimi, eyni zamanda sağlam qidalanmadır. Hamilə qadınlar üçün sağlam qidalanma yetərli və taraz qidalanmadır. Hamiləlikdə qidalanma digər vaxtlardakından daha çox vacibdir. Çünki dölün tək qaynağı vardır, o da anasıdır. Hamiləlikdə qidalanma həm dölün inkişafına təsirinə görə, həm də ananın lazımi qidalı maddələrinin ödənməsi üçün diqqət edilməsi gərəkən mövzudur.

Qidalanma piramidasına 5 əsas qida qrupu daxildir: Karbohidratlar, vitamin və minerallar, zülallar, yağlar, şəkər. Qidalanma piramidası qidaların doğru seçilməsi üçün hamilə qadınların rəhbəri olmalıdır.

Karbohidratlar: Çörək, makaron, düyü, taxıl məhsulları və quru paxlalılarda (noxud, mərcimək, lobya dənəsi) yüksək miqdarda olur. Şəkərlər də bu qrupda yerləşir. Şəkərlər bildiyimiz kimi çay şəkəri (saxaroza), meyvə şəkəri (fruktoza), və süd şəkəri (laktoza) olaraq qruplara ayrılır. Karbohidratlar bədənimiz üçün yaxşı enerji qaynağıdır. Günlük enerji tələbatının 55-60%-ni ödəyir. Burda önəmli olan şəkərli qidalardan çox digər karbohidrat məhsullarının qəbuludur.

Vitamin və minerallar: Minerallar (kalsium, dəmir, yod, sink) tərəvəz və meyvələrdə olur. Kalsium-dölün hamiləliyin 8-ci həftəsində inkişafa başlayan sümük və dişlərin inkişafı üçün çox önəmlidir. Kalsiumla zəngin qidalara; pendir, qatıq, yağı alınmış süd, təzə badam, ağ çörək, sardalya balığı, kəsmik daxildir. Bətndaxili infeksiyalardan toksoplazmosu olan xanımlara kalsiumu süd və süd məhsullarından alması məsləhət deyil. Həkim nəzarəti altında kalsium preparatlarından istifadə etməsi məsləhətdir. Dəmir hamiləlikdə dölün doğulduqdan sonra da istifadə edəcəyi dəmirin depolanması, hamiləlik səbəbiylə artan qan dövranına yetərli oksigen daşınması üçün artıq miqdarda dəmirə ehtiyac var. Heyvani qidalardakı dəmir tərəvəz və quru meyvələrdə olandan daha asan sorulur. Ət yemirsi-

nizsə, dəmirin sorulmasını artırmaq üçün qəbul etdiyiniz qidaların **C** vitaminiylə zəngin olması lazımdır. Artan dəmir ehtiyacını ödəmək üçün dəmir tərkibli dərman preparatlarının qəbulu lazımdır (həkim məsləhətiylə). *Dəmirlə zəngin qidalar:* yağsız qırmızı ət, ton balığı, qara ciyər, üzüm. **C** vitamini-bədənimizin xəstəliklərə qarşı müqavimətini artırır və dəmirin bağırsaqlardan sorulmasını asanlaşdırır. C vitaminiylə zəngin qidalar: kələm, qreyfurt, pomidor, yaşıl və qırmızı bibər, gül kələm, portağal, kartof, çiyələk. **A** vitamini-ana və dölün hüceyrələrin bölünməsini təmin edir. **A** vitaminiylə zəngin qidalar: qara ciyər, süd, yumurta, kök, gül kələm, kartof, təzə meyvə. **D** vitamini-uşağın skelet sisteminin inkişafını təmin edir, raxitliyin qarşısını alır. **D** vitaminiylə zəngin qidalar: süd, balıq, yumurta və günəş işığı. **E** vitamini-dölün böyüməsinə kömək edir, inkişafını gücləndirir. **E** vitaminiylə zəngin qidalar: bitki yağları, marqarin, fındıq, ispanaq, qoz. **B1** vitamini-anaya enerji təmin edir və anayla dölün sinir sistemini gücləndirir. B1 vitaminiylə zəngin qidalar: bütün paxlalılar, buğda, yumurta, ət, düyü, fındıq. *Lifli qidalar:* günlük qidalanmanın böyük bir hissəsini tutması lazım olan lifli qidalar hamiləlikdə tez-tez görülən qəbizliyin qarşısını alır. Tərəvəz və meyvələr lif tərkiblidir. Kəpəkli qidalarda lif tərkiblidir, ancaq digər bəzi qidaların sorulmasını pozduğu üçün çox yeyilməməlidir. *Liflə zəngin qidalar:* kəpəkli çörək, düyü, quru üzüm, kəpəkli makaron, meyvə quruları, göy noxud.

Zülallar: Hamiləlikdə zülal ehtiyacı artdığı üçün zülal tərkibli qidalar almalısınız. Zülalla zəngin qidalar: toyuq əti, balıq, qatıq, yer fıstığı, yağsız qırmızı ət, yumurta, mərcimək, holland pendiri.

Yağlar: Normaya uyğun bir diyetayla toplam enerji ehtiyacının 30%-i yağlar tərəfindən ödənilir. İstifadə olunacaq yağların seçimində bitki tərkibli yağlar (zeytun, qarğıdalı), heyvani yağlara (kərə, iç yağı) nisbətən üstünlük təşkil etməlidir.

İşləmdən keçmiş və dondurulmuş qidalar: Konserva kimi işləmdən keçmiş qidalardan hamiləlik müddətincə uzaq durun. Bu cür qidalara artıq miqdarda şəkər və ya duz qatılır, artıq yağlar olur, lazımsız qoruyucu, dadverici, zənginləşdirici maddələr olur. İş yeri yeməkxanalarında verilən isti yeməklərdən, əvvəlcədən bişmiş market yeməklərindən, bişirilmiş və isti olmayan toyuq ətindən uzaq durun. Bunlarda dölə keçib təhlükə yaradan bakteriyalar ola bilər.

Maye: Hamiləlikdə böyrəkləri işlətmək və qəbizliyin qarşısını almaq üçün bolca maye içilməlidir. Ən yaxşı içəcək sudur. Bu səbəblə hamiləlikdə istədiyiniz qədər bol su içməlisiniz. Gündə 6-8 stəkan su içilməsi məsləhətdir. Çay, kofe, kakao-bunların üçünün də tərkibində olan kofeinin həzm sisteminə bəzi zərərləri var. Kofein tərkibli içkiləri gündə 3 stəkandan artıq içməyin. Əvəzində təzə sıxılmış meyvə sularına üstünlük verin.

Hamiləlikdə ən lazımlı qidalar: süd, pendir, yaşıl yarpaqlı tərəvəzlər, yağsız qırmızı ət, toyuq əti, sardalaya balığı, portağal, balıq, kəpəkli çörək.

Hamiləlikdə yeyilməsi təhlükəli qidalar: yüksək civə səviyyəsi olan dərin su balıqları, midya, çiy və yaxşı bişməmiş ət, çiy yumurta, təzə və pasterizə edilməmiş pendir, pasterizə edilməmiş süd, çiy sosiska, dalaq, böyrək, hazır yeməklər, qızartmalar, 2 fincandan artıq kofe, qara çay və bitki çayı.

Müyesser TAŞLIYAR

ƏN FAYDALI ƏT

Ətlərin tərkibində zülal, dəmir, fosfor, mis, riboflavin vardır. Ətin 50%-ilə 70%-i sudur. İçində az olmaqla bərabər qlükoza şəklində karbohidrat vardır. Ən sağlam ət heyvanın kəsildiyi zaman yeyilən ətdir. Amma ətlərin keyfiyyətli və təzə olmasını bilmək çox çətindir. Bunun üçün ət aldığımız zaman barmağımızla ətə basmalıyıq, barmaq izi tez çəkilərsə, ət təzədir. Ətdə iz qalarsa, ət köhnədir.

Əti soyuducudan çıxartdığınız zaman işlətməyin, otaq havasında bir az saxlayın.

Kartof ilə qiymələnmiş qoyun əti

Ərzaq: adambaşına 70 q qoyun əti, 200 q kartof, 30 q ərinmiş yağ, 1 baş soğan, 50 q pomidor, keşniş, tam üçün istiot, duz götürülür.

Hazırlanması:

Kartof soyulur, yuyulur, içi ovulur, duzlu suda bir az bişirilir.

Qoyun əti sümüklərdən ayrılıb ətçəkən maşından keçirilir və yağda qızardılır, buna yağda qovrulmuş soğan, duz, istiot əlavə edilir. Sonra qiymə ovulmuş kartofun içinə doldurulub dayaz qazana yığılır və üstünə yağ tökülüb elektrik sobada bişirilir.

Süfrəyə veriləndə kartofun yanına doğranmış pomidor qoyulur və üstünə göyərti səpilir.

Nuş olsun!

Fəvvarələr meydanı salatı

İçindəkilər:
Toyuq döşü – 2
Təzə xiyar – böyük xiyarın yarısı
Təzə pomidor – 2 (ətli olsun)
Cəfəri – bir dəstə
Mayonez
Duz, istiot

Hazırlanması:
Toyuq döşünü yuyun, bişirib soyudun. Xrda-xırda doğrayın. Pomidor və xiyarı da xırda-xırda doğrayın. Bunlar hamısı bir miqdarda olmalıdırlar. Cəfərini xırda-xırda doğrayın. Mayonez, duz və istiot süfrəyə verilərkən əlavə olunur.
Nuş olsun!

Kakaolu-şokoladlı keks

İçindəkilər: 3 yumurta, 1 stəkan şəkər tozu, 1 stəkan un, 1 stəkan süd, 1 stəkan ərinmiş yağ, 1 çay qaşığı kakao, 1-1.5 stəkan ərinmiş şokolad, 1 paket qabartma tozu, 1paket vanel.
Hazırlanması: Şəkər tozu ilə yumurtalar qatı hala gələnə qədər qarışdırılır. Sonra bunlara ərinmiş yağ, süd, vanel əlavə edirik. Ayrıca qabda una qabartma tozu töküb ötəri qarışdırırıq. Sonra əvvəlcə hazırladığımız məmulatları üstünə tökürük, xəmir hazırlayırıq. Amma xəmir nə çox duru, nə də çox bərk olmalıdır.
İçi boş dairəvi keks qabına alüminium kağız qoyub qarışığı içinə tökürük.
Əvvəlcədən orta dərəcədə qızdırılmış sobada 40-45 dəqiqə bişiririk.
Nuş olsun!

Məryəm XƏLİLOVA

SÜFRƏ MƏDƏNİYYƏTİ

Yemək yemək və su içmək ədəbi

Bizlərə qidalanmağımız üçün müxtəlif nemətlər bəxş edən Uca Allah *"Yeyin, için, amma israf etməyin."*- deyə, buyurur. Süfrədə oturarkən və yemək yeyərkən qəbul olunmuş qaydalar vardır ki, hər bir insan bunlara riayət etməlidir.

Bir müsəlman yeməyə başlarkən **"Bismillah"** deməyi unutmamalıdır.

Su və süd içərkən də **"Bismillah"** demək, yeməkdə Bismillah demək kimidir. Ən fəzilətli olanı **"Bismillahirrahmənirrahim"** deməkdir. Sadəcə **"Bismillah"** deyilməsi də kafi görülmüşdür.

Ev sahibinin yeməyi qonaqlara təqdim edərkən **"Bismillah"**, **"Buyurun"** kimi yeməyə başlama icazəsini açıq ifadə edən bir söz söyləməsi müstəhəbdir. Amma məcbur deyildir.

Yemək ədəbi.

- Yeməkdən əvvəl və sonra əllər yuyulmalı, yeməkdən sonra isə əllərlə bərabər, ağız da yaxalanmalıdır.
- Yemək zamanı süfrəyə qoyulan və süfrədən yığılan ilk təam duz olmalıdır.
- Acmadığınız zaman yemək süfrəsinə oturulmamalıdır.
- Süfrə başında əvvəl böyüklərin yeməyə başlamasını gözləmək lazımdır.
- Yeməyi isti-isti yemək olmaz, üfürərək soyutmaq da olmaz.
- Yemək qoxulanmamalıdır.
- Yemək ayıblanmamalıdır.
- Bir başqasının yediyi tikələri izlənilməməlidir.
- Hər kəs qabın öz qarşısına gələn tərəfindən yeməlidir.
- Yemək zamanı ağızdan diksindirici səslər çıxarmamaq üçün diqqətli olmaq lazımdır.
- Yemək qabında artıq yemək buraxılmamalıdır.
- Çörəklə bıçaq, qaşıq və dodaqlar silinməməlidir. Əgər belə olarsa, o tikəni yeməlidir.
- Yeməyin sonunda **"Əlhamdulillah"** deyilir.

İçmə ədəbi

- Suyu bir nəfəsə deyil, udum-udum, iki və ya üç nəfəsə içmək lazımdır.
- Su içdiyimiz zaman sağ əl ilə içmək lazımdır.
- Suyu oturaraq içmək lazımdır.
- Qızıl və gümüş qabda su içmək müsəlmana uyğun görülməmişdir.
- Stəkanın sınıq tərəfindən su içilməməlidir.
- Su stəkanına üfürülməməlidir.
- Su və ya yemək qabına üfürülərsə, qabın içinə ağız seliyi sıçraya bilər. Orada olan insanlarda bu haldan diksinə bilər.
- Su içdikdən sonra da "Əlhamdulillah" deyilir.

Ailə süfrəsində ədəb qaydaları

- Ailə süfrəsinin hazırlanmasında hər kəs kömək edə bilər.
- Ailə süfrəsində əvvəl böyüklər, sonra isə kiçiklər oturar.
- Hər kəs yeyə biləcəyi qədər yemək götürər.
- Süfrə başında oturanlar hərəkət və davranışlarına diqqət etməlidir.
- Yemək ağzı qapalı yeyilməli, ağızda yemək olduğu zaman danışılmamalıdır.

Yeməkdən sonra süfrə duası oxunar

Birlikdə yemək yedikdən sonra hər hansı bir şəxs bu duanı oxuyur:

Bizi doyuran, içirən və müsəlmanlardan edən Allaha həmd olsun.

Allaha həmd, bu yeməyin sahibinə və yeyənlər üzərinə Allahın bə-

rəkəti olsun.

Allahım nemətlərimizi davamlı, dinimizi qaim, övladlarımızı da alim və saleh insanlardan et. Zalım insanları bizlərin üzərindən uzaqlaşdır.

Fatihə surəsinin sirri hörmətinə bizə verdiyin nemətləri artır, Allahım.

- Yalnız yemək yeyən də yeməyini bitirdik də bu duanı oxuya bilər.

Aynur QULİYEVA

GƏLİN BİRLİKDƏ GÜLƏK

MƏKTƏB SEVGİSİ

Bir qadın məktəbin həyətində gəzən uşaqdan soruşur:

- Məktəbi sevirsənmi?
- Bəli.
- Nə üçün sevirsən?
- Çünki məktəb olmasaydı, tətil olmazdı, - deyə, cavab verir.

RİYAZİYYAT DƏRSİ

Riyaziyyat müəllimi Əhmədə bir sual verir:

- Sənin 20 manat pulun var. 10 manatını Aytənə, 5 manatını Eminə, 3 manatını da Günelə versən, əlində nə qədər pulun qalar Əhməd:

-Müəllim, əlimdə qalanı heç hesablamağa dəyməz.

OĞRU OĞURLAYAR

Müəllim:

- Dəmir və mis çöldə qalarsa paslanar,- deyir, sonra bu sualı verir:
- Qızıl və gümüş çöldə qalarsa nə olar?

Şagirdlərdən Xədicə:

- Oğru oğurlayar, müəllim.



DÜNYANIN NİZAMI



Bir gün bir nəfər Molla Nəsrəddinə:

- Sabah olanda insanların bəzisi o tərəfə, bəzisi də, bu tərəfə gedir. Bunun səbəbi, hikməti nədir, ay molla?

Molla Nəsrəddin də:

- Hər kəs eyni tərəfə gedərsə, dünyanın nizamı pozula bilər. Ona görə belədir, - deyə cavab vermişdir

T A P M A C A L A R

Qaradır, qartal deyil,
Uçar, amma quş deyil.
(Birə)

Üstü sarı düyməli, dilim-dilim dilməli.
(Portağal)

Tarlası qara, toxumu ağ
(düyü)

Kağız qələmə nə demişdir?
(Üstümdə gəzmə qıdıqlanıram)

Mənə kabab dedilər, yeyilməsi savab dedilər.
(Şabalıd)

Bir ağacı oyublar, içinə dünyanı qoyublar.
(Televizor)

İsti evin dirəyi,
Gup-gup edər ürəyi
(Ata

B İ L İ R S İ N İ Z M İ

Kirpilərin suda batmadığını,

Pişiklərin şəkər yemədiyini,

Bədənimizdəki sümüklərin dörddə birinin ayaqlarımızda olduğunu,

Zürafənin dilinin 35 sm olub, səs tellərinin olmadığını,

Kəpənəklərin dadı ayaqlarından aldığını,

Qurbağaların heç bir şey yemədən 3-4 il yaşaya bildiyini bilirsinizmi?

Hacer Aleyna TAŞLIYAR

XƏSİS QIZ

Biri varmış, biri yoxmuş, bir qız varmış. Bu qız çox xəsismiş. Heç kimsəylə bir şeyini bölüşməzmiş, yaxşılıq etməzmiş. Bu haldan ətrafındakı insanlar və müəllimi çox rahatsız olurdu. Bir gün Dəryanın müəllimi anasını məktəbə çağırır. Müəllimi Dəryanın bu halına çox kədərləndiyini və bu hala birlikdə çarə tapa biləcəklərini, anasının Dərya ilə yumşaq bir şəkildə danışmasını, əks halda Dəryanın böyüdüyü vaxt çox problemlər yaşayacağını söyləyir.

Dərya anası ilə evə gəldikdən sonra birlikdə yemək yedilər. Anası Dərya ilə danışmağa başladı: *"Dərya, qızım artıq böyük qız oldun, 4-cü sinfə gedirsən. Bu xəsislik və qısqanclığını burax. Əgər bu hala davam edərsənsə, heç kimsə tərəfindən sevilməzsən."*

Dərya anasının söylədiklərini yaxşıca dinlədi və anasına bu gündən sonra də

yişəcəyinə söz verdi. O, sözündə durdu, bir daha xəsislik etmədi. Müəllimi və yoldaşları bu hala çox sevindilər.

Dərya paylaşmağın çox gözəl bir şey olduğunu anlamışdı. Bunu daha əvvəl nə üçün etmədim deyə, çox kədərlənir, ətrafındakı hər kəsdən üzr istəyir, müəlliminə və anasına onu xəbərdarlıq etdikləri üçün təşəkkür edir.

BİZİM AİLƏ JURNALI BÜTÜN AZƏRBAYCAN XALQINI MÜƏLLİMLƏR GÜNÜ, MÜSTƏQİLLİK GÜNÜ, QURBAN BAYRAMI VƏ BÜTÜN DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ MÜNASİBƏTİ İLƏ TƏBRİK EDİR VƏ BÜTÜN DÜNYA AZƏRBAYCANLILARINA XOŞ TƏƏSSÜRATLAR ARZULAYIR.

BİZİM AİLƏ JURNALI